

Rus politoloq:
**“Brüssel sammiti Azərbaycanın qeyd-şərtsiz diplomatik qələbəsidir”**

15

# Prezident İlham Əliyev

## sosial islahatların yeni mərhələsinə start verdi



7

Müasir Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi nəticəsində bu gün ölkəmizin sosial-iqtisadi tərəqqisi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşların marağı, rifahı dayanır. "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" - söyləyən Prezident İlham Əliyev ölkə əhalisinin sosial-rifah halının yaxşılaşdırılması üçün mühüm...


# Səs

№ 233 (6433) 21 dekabr 2021-ci il. Qiymәti 40 qәpik


# İlham Əliyev:

## “Biz Azərbaycanı Avrasiyanın nəqliyyat habına çeviririk”



**Prezident İlham Əliyev Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib**

2



## “Yolu azaraq

### Ermənistan tərəfə keçən iki hərbçimiz geri qaytarılıb”

Dekabrın 18-də gündüz saatlarında Laçın rayonunun dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun iki hərbi qulluqçusu müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hüseynov Teymur Ələddin oğlu və əsgər...

5

## “MEDİA haqqında” qanunnələri dəyişəcək?





16

## “Arsenal”dan 7000-ci qol!

Futbol üzrə İngiltərə Premyer Liqasının 18-ci turunda "Lids"lə keçirilən oyun (4:1) "Arsenal" üçün əlamətdar olub. "topçular" bu turda darmadağınla yanaşı, eyniz amanda yenir ekord da müəyyənləşdiriblər. Belə...



## “Qara qutu”nun səs yazıları Azərbaycana təqdim edilib

12

Dövlət Sərhəd Xidmətinə məxsus helikopterin Xızı rayonu ərazisində qəzaya uğraması nəticəsində 14 nəfərin...



## Artımlar

8

### nikbin proqnozlar vəd edir

# İlham Əliyev:

# “Biz Azərbaycanı Avrasiyanın nəqliyyat habına çeviririk”

## Prezident İlham Əliyev Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə işgüzar səfərdə olarkən dekabrın 15-də İtaliyanın ”İl Sole 24 Ore” qəzetinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

Müxbir: Əvvəla, görüşmək imkanı yaratdığınız üçün Sizə təşəkkürümü bildirirəm. Mən dəfələrlə Azərbaycanda olmuşam, bir çox seçkilərin keçirildiyi vaxtlarda Azərbaycanda səfərdə olmuşam.

***Prezident İlham Əliyev: Sonuncu dəfə nə vaxt olmusunuz?***

-Sonuncu dəfə ilyarım bundan öncə. Çox maraqlı ölkədir və etiraf edirəm ki, Siz böyük irəliləyişə nail olmusunuz. Mən ”İl Sole 24 Ore”nin Yaxın Şərq üzrə müxbiriyəm. Bu, İtaliyanın ən böyük siyasi qəzetidir.

***-Bundan xəbərim var.***

-Etiraz etmirsinizsə, mən müsahibə zamanı Azərbaycanın İtaliya ilə güclü münasibətlərinə toxunmaq istərdim.

***-Bəli, böyük məmnuniyyətlə.***

-İqtisadiyyatın şaxələndirilməsi. Bu, çox maraqlı mövzudur. Beynəlxalq media, zənnimcə, bunu layiqincə işıqlandırmayıb.

***-Razıyam.***

-İcazənizlə başlayaq. Mənim ilk sualım Dağlıq Qarabağ məsələsi ilə bağlıdır. Dünən Siz maraqlı bir görüş keçirmisiniz. Səhv etmirəmsə, Sizin dünən Ermənistanın baş naziri və cənab Şarl Mişellə görüşünüz olub. Görüş necə keçdi və bizim bilməli olduğumuz hər hansı bir yenilik varmı?

> “Biz heç vaxt heç bir müqaviləni pozmuruq, müqavilədə olan hətta bir sözü belə pozmuruq”

***-Əvvəlcə, mən Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişellə görüşdüm. Bir saat ərzində biz geniş sahələri əhatə edən məsələləri müzakirə etdik. Əlbəttə, əsas diqqət münaqişədən, ötənilki müharibədən sonra yaranmış vəziyyətə yönəldilmişdir. Əlbəttə, Avropa Komissiyasının səyləri Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasına yönəldilib. Biz Avropa Komissiyasının və xüsusilə də cənab Mişelin səylərini yüksək qiymətləndiririk. O, bu ilin yayında Azərbaycanda və Ermənistanda səfərdə olmuşdu. Biz bu səfərdən sonra daim təmasda olmuşuq və o, vəziyyətin təfərrüatından xəbərdardır. Biz onun şəxsi iştirakına böyük dəyər veririk.***

Günün sonunda bizim üçtərəfli görüşümüz oldu və həmin görüş dörd saatdan artıq çəkdi. Hesab edirəm ki, görüş olduqca səmərəli idi. Hər iki tərəf əsasən İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlar, həmin reallıqlara uyğunlaşma və qonşu olaraq yaşamağı öyrənmək kimi məsələlərdə öz mövqeyini aydın şəkildə təqdim etdi. Əlbəttə, biz postmüharibə vəziyyətinin praktiki elementlərini, xüsusilə də kommunikasiyaların açılmasını müzakirə etdik. Bu, ötən ilin noyabrında Rusiya Prezidenti, Ermənistanın baş naziri və mənim tərəfimdən imzalanmış üçtərəfli Bəyanatın mühüm hissəsidir. Lakin çox vacib Bəyanatın bu hissəsinin icrası olduqca ləng gedir. Beləliklə, dünən Ermənistan tərəfindən dərhal həyata keçiriləcək fəaliyyətə dair mühüm qərarlar qəbul edildi ki, dəmir yolu layihəsinin praktiki reallaşdırılmasına start verilsin. Bizə gəldikdə, artıq işlərə başlamışıq və azad edilmiş ərazilərdən Ermənistan sərhədinə qədər dəmir yolu xətti 2023-cü ilin sonunadək hazır olmalıdır. Biz, əlbəttə, ümid edirik ki, o vaxta qədər Ermənistan özünün ev tapşırığını yerinə yetirəcək. Əlbəttə, biz digər məsələlərə də toxunduq. Minaların təmizlənməsi məsələsi tərəfimizdən qaldırıldı və Prezident Mişel Azərbaycana bu vəziyyətin öhdəsindən gəlməkdə yardımçı olmaq arzusunu ifadə etdi. Çünki müharibə bitdikdən sonra 200 nəfərə yaxın insan minalar səbəbindən həlak olub və ya ağır yaralanıb. Biz, həmçinin humanitar və bir çox digər məsələləri müzakirə etdik. Hesab edirəm ki, olduqca məhsuldar müzakirələr aparıldı. Mən çox məmnunam.

> “Ermənistanın sanki bir daimi çətiri var, orada nə baş verməyindən asılı olmayaraq, o, demokratiya hesab olunur. Bir növ ikili standartlar...”

***-Siz bir fikir bildirdiniz və burada ağlıma belə bir sual gəldi. Avropa İttifaqı bu yaxınlarda Ermənistana 2 milyard dollar həcmində dəstək paketini elan etdi. Ukraynaya da 2 milyard dollara yaxın yardım ayrılacaq. Səhv etmirəmsə, Azərbaycana isə sadəcə, 140 milyon avro ayrılacaq. Yəni, burada çox böyük fərq var. Sizcə, nə üçün belədir? Belə bir qərar haradan qaynaqlanır?***

-Bunun nədən belə olduğunu demək çətindir. Çünki bu suala cavab vermək üçün ixtiyarımda kifayət qədər fakt olmalıdır. Mən yalnız bununla öz fikrimi bildirə bilərəm. Siz tamamilə haqlısınız. Bu, bir çox müşahidəçiləri təəccübləndirən fakt oldu və Azərbaycan əhalisi üçün də çox xoşagəlməz bir sürpriz oldu. Bir məsələni dəqiqləşdirim - Avropa Komissiyası tərəfindən Ermənistana təqdim ediləcək paketin həcmi 2.6 milyard dollardır, Azərbaycana isə sizin qeyd etdiyiniz kimi 140 milyon. Yəni, fərq təqribən 20 dəfədir. Bu, ədalətlidirmi? Xeyr. Bu, hər iki ölkənin real ehtiyaclarına müvafiqdirmi? Xeyr.

Ardı Səh. 3

## Rəsmi xronika

Prezident İlham Əliyev ”Sosial müavinətlərin məbləğinin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev ”Beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 72 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev ”Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev ”Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin yaradılması haqqında Protokol”un təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev ”Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında Sərəncam imzalayıb.

# İlham Əliyev:

# "Biz Azərbaycanı Avrasiyanın nəqliyyat habına çeviririk"

## Prezident İlham Əliyev Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib

Əvvəli Səh. 2



Hətta azad olunmuş ərazilərdə Ermənistan tərəfindən törədilmiş dəhşətli dağıntıları kənara qoysaq belə, hər iki ölkənin əhalisinin sayına nəzər salsaq, görərik ki, fərq 5 dəfədən çoxdur - Azərbaycanın əhalisi 10 milyon, Ermənistanda isə 2 milyon. Bundan əlavə, işğal illəri ərzində Livanın sahəsinə bərabər ərazilər tamamilə dağıdılıb. Bu gün əcnəbi vətəndaşlar və jurnalistlər həmin ərazilərə səfər edəndə dağıntıların miqyasını öz gözləri ilə görürlər. Eyni zamanda, bizim hesablamalara görə orada 1 milyona yaxın mina basdırılıb. Minaları təmizləmə prosesi olduqca baha başa gəlir və çox vaxt aparır. Ermənistanda heç bir dağıntı yoxdur. Bu ölkə işğal edilməmişdi, o, özü işğalçı idi. Fiziki cəhətdən belə Ermənistanın iqtisadiyyatı bu nəhəng həcmli paketi mənimsəyə bilməz. Beləliklə, bu, çox təəccüblüdür və bu paket elan edildikdən sonra, Prezident Mişelin bu yay Azərbaycana səfərindən sonra biz bu mövzunu daim müzakirə edirik. Biz istəyirik ki, yanaşma vahid standartlara əsaslansın. Biz ədalət istəyirik və əlbəttə, Azərbaycana eyni şərtlərlə, eyni həcmdə vəsaitin verilməsini istəyirik.

***-Cənab Prezident, Siz tamamilə haqlısınız. Minaların təmizlənməsi çox həssas, vacib və strateji fəaliyyətdir. Həqiqətən də azərbaycanlıların azad olunmuş ərazilərə geri dönməsi və məskunlaşması arzu olunursa, həmin ərazilərin təhlükəsizliyi təmin edilməlidir. Bu səbəbdən mən təəccübləndim. Minaların təmizlənməsi kimi həssas bir məsələnin Avropa İttifaqını daha öncə hərəkətə keçməyə vadar etməməsi Sizi təəccübləndirirmi?***

-Bilmirəm. Mən dəfələrlə bu məsələləri qaldırmışam və dünən də cənab Mişellə görüşdə hətta təklif etdim ki, Avropa Komissiyası özünün fondları vasitəsilə Azərbaycanda minalardan təmizləmə prosesinin maliyyələşdirilməsini nəzərdən keçirsin. Dedim ki, pulu bizə verməyin, minaların təmizlənməsi ilə məşğul olan Avropa şirkətlərinə maliyyə yardımı ayırın ki, onlar Azərbaycana gəlsinlər və işə başlasınlar. Çünki Azərbaycan üçün fiziki olaraq bunu qısa müddətdə etmək mümkün deyil. Bundan əlavə, bu, çox bahalı işdir və siz tamamilə haqlısınız ki, minalar təmizlənməsə, biz insanların geri qayıdışını təmin edə bilmərik. Onlar bunu 30 ilə yaxındır ki, gözləyirlər. Hazırda genişmiqyaslı bərpa işlərinə başlanılan ərazilər minalardan təmizlənib, digər yerlər isə yox. Yəni, geri dönəcək insanlar ciddi problemlər və həyati təhlükə ilə üzləşəcəklər. Beləliklə, mən ümid edirəm ki, təmaslarımızda buna daha çox aydınlıq gətiriləcək. Əlbəttə, bizim ehtiyaclarımız minaların təmizlənməsi ilə məhdudlaşmır. Hər şey dağıdılıb. Oralarda nə şəhər, nə də kənd var - tamamilə dağıdılmış ərazilərdir. Bizim mövqeyimiz ondan ibarətdir ki, Ermənistana maliyyə töhfəsinin səviyyəsi istər ianə olsun, istərsə də kredit, Azərbaycanla eyni olmalıdır.

> "Artıq işlərə başlamışıq və azad edilmiş ərazilərdən Ermənistan sərhədinə qədər dəmir yolu xətti 2023-cü ilin sonunadək hazır olmalıdır"

***-Ola bilərmi ki, Avropa İttifaqı burada bir az ehtiyatlı davranır. Çünki bəzi hesabatlara görə Azərbaycanda hələ də insan hüquqları, mətbuat azadlığı sahəsində müəyyən problemlər var? Azərbaycan bu günə qədər inkişaf edib və hər kəsə məlumdur ki, bu proses zaman tələb edir. Sizcə, bu məsələ həmin fəaliyyəti ləngidə bilərmi?***

-Xeyr, mən belə düşünmürəm. Əvvəla, indi Avropa təsisatlarında daha aydın təsəvvür var ki, insan hüquqları və media azadlığına dair problemlərin olması təəssüratı şişirdilib. Çünki Azərbaycanda media ilə bağlı məhdudiyyətlər yoxdur, bizdə azad internet var və senzura mövcud deyil. Azərbaycan əhalisinin 80 faizindən çoxu internet istifadəçisidir, medianı məhdudlaşdırıb azad internetə malik olmaq mümkünsüzdür. Eynilə insan hüquqları məsələsi. Bütün insan hüquqları qorunur və bu gün Azərbaycan uzun illər əvvəl üzləşdiyi tənqidə məruz qalmır. Çünki birincisi, biz avropalı tərəfdaşlarımızı inandırmağa müvəffəq olduq ki, onların məlumatı əsasən səhv ssenariyə əsaslanıb və biz genişmiqyaslı siyasi və iqtisadi islahatlar həyata keçirdik. İkincisi, əgər siz mahiyyətə diqqət etsəniz, görərsiniz ki, Ermənistanda insan haqları və siyasi azadlıqlar kobud şəkildə pozulur. Məsələn, siyasi partiyaların çoxlu təmsilçiləri həbsdədir. Əsas siyasi partiyaların liderlərinə qarşı cinayət işləri açılıb. Ermənistanda repressiyalarla bağlı böyük ictimai narazılıq var və bütün bunlar açıq-aşkar faktlardır. Lakin Ermənistanın sanki bir daimi çətiri var, orada nə baş verməyindən asılı olmayaraq, o, demokratiya hesab olunur. Bir növ ikili standartlar...

***-Üzr istəyirəm. Daha bir sual. Mən çox açıq ola bilərəm?***

-Bəli, əlbəttə.

***-Siz Ermənistan silahlı qüvvələrinin birinci müharibə zamanı ələ keçirdiyi rayonları ayyarımа geri qaytardınız. Demək olar ki, 15 illik danışıqlarda Siz bu nəticəni əldə etməmişdiniz. Mənim sualım belədir: Əvvəllər Minsk qrupunun fəaliyyətinin qeyri-rəsmi olaraq status-kvoya, sadəcə, sülhün saxlanılmasına yönəldiyi görünürdü. Bu, bəlkə də Rusiya üçün əlverişli idi ki, o, işlər bu cür getdiyi müddətdə rol oynaya bilsin. Minsk qrupunun rolu ilə bağlı fikirləriniz nədən ibarətdir? Çünki Sizin özünüzdə də bu qrupun fəaliyyəti ilə bağlı skeptisizm, hətta məyusluq var idi.***

-İlk növbədə, demək istərdim ki, Minsk qrupu ATƏT-in mandatına əsasən, 1992-ci ildən münaqişəni həll etməyə məcbur idi. Onlar ötən il noyabrın sonunadək, biz 44 gün ərzində əraziləri azad edənə kimi 28 il ərzində fəaliyyət göstərdilər. Mənim Minsk qrupunun fəaliyyəti ilə bağlı fikrim Azərbaycan xalqının fikrindən fərqlənmir. Bu, uğursuzluq idi. Biz həqiqəti deməliyik. Məsələnin gün işığı kimi aydın olduğu halda, biz siyasi korrektlik naminə bunun əksini söyləyə bilmərik. Əgər Minsk qrupunun həmsədrləri - dünyanın aparıcı ölkələri, Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ü, 3 nüvə dövləti, dünyanın ən güclü ölkələri Ermənistanın işğalına son qoya bilmədilərsə və ya bunu etmək istəmədilərsə, bu, o deməkdir ki, onların fəaliyyəti uğursuz idi. Onlar 28 il fəaliyyət göstərdilər. Təsəvvür edirsiniz?

***-Sözünüzü kəsdiyimə görə, üzr istəyirəm. Madrid prinsiplərindən başlayaq. Lakin bu, uzun dövrdür.***

-Bəli, Madrid prinsipləri 10 il əvvəl idi. Onlar isə 1992-ci ildə fəaliyyətə başladılar. Mənim qeyd etdiyim üç aparıcı ölkə isə bundan bir neçə il sonra həmsədr oldu. Lakin istənilən halda, 20 ildən çox fəaliyyət göstəriblər, nəticə sıfra bərabər olub. Bəs, niyə? Bəlkə də ona görə ki, siz qeyd etdiyiniz kimi, status-kvo onlar üçün qəbuledilən idi. Buna baxmayaraq, sizə deyə bilərəm ki, müəyyən mərhələlərdə, hətta Minsk qrupu həmsədr ölkələrinin dövlət başçıları səviyyəsində müsbət bəyanatlar var idi ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Bu, bizi çox ümidləndirirdi. Lakin əfsuslar olsun ki, heç bir hərəkət yox idi. Bu, çox sadə idi. Mən bu məsələni dəfələrlə qaldırmışam. Ermənistanı Azərbaycan ərazilərini tərk etməyə və BMT Təhlükəsizlik Şurasının bunu tələb edən qətnamələrinə əməl etməyə yola gətirmək və ya məcbur etmək üçün yeganə yol Ermənistana qarşı sanksiyalar tətbiq etmək idi. Biz bilirik ki, müəyyən hallarda bu sanksiyalar digər ölkələrə qarşı tətbiq olunur, lakin Ermənistana qarşı yox. Yenə də ikili standartlar, yenə də ədalətsiz yanaşma. Azərbaycan xalqı Minsk qrupu üçlüyünün bu daimi səfərlərindən yorulmuşdu. Onlar ildə bir neçə dəfə gəlib-gedirdilər və heç bir nəticə yox idi. Onların fəaliyyəti faktiki olaraq 2019-cu ildən sonra, Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" bəyan edəndən sonra tamamilə iflic oldu. Bu, o demək idi ki, danışıqların sonudur. Çünki əgər Ermənistan "Qarabağ Ermənistandır" deyirsə, nə barədə danışmaq olar? Digər məsələ ondan ibarətdir ki, bir qədər sonra Ermənistan rəhbərliyi dedi ki, Qarabağ müstəqil ölkədir. Bu da əvvəlki bəyanatla ziddiyyət təşkil edirdi. Lakin Minsk qrupu reaksiya vermədi. Onlar hətta bu bəyanatı pisləmədilər. Əlbəttə ki, bu cür davranış yalnız Ermənistanı danışıqlar masasında mövqeyini möhkəmləndirməyə və işğalı sonsuz etməyə cəsarətləndirdi. Ermənistanın hədəfi bu idi və təəssüflər olsun ki, Minsk qrupu bu işdə onlara kömək etdi.

***-Təşəkkür edirəm, cənab Prezident. Gəlin regiona, xüsusilə Avropa ilə Rusiya arasındakı problemə keçək. Bu, əslində, Sizin işiniz deyil, lakin Azərbaycan Avropaya kömək edə bilər. Avropa İttifaqında narahatlıqlar var ki, Rusiyanın Ukraynanı işğal etmək ehtimalı elə gərginlik yarada bilər ki, bəzi layihələr təxirə salınar və hətta Rusiya təbii qazı silah kimi istifadə edə bilər. Onu nəzərdə tuturam ki, Avropa İttifaqı öz təchizat marşrutlarını şaxələndirməyi həddindən çox istəyir və əslində, Cənub Qaz Dəhlizi ən maraqlı gələcək kanallardan biri kimi görünür. Sizin böyük həcmdə qazınız var, Sizin yaşıl enerji ilə bağlı maraqlı proqramınız var. Sizin ixrac etmək üçün daha çox qazınız var. Siz hətta TAP-la bitən xətti iki dəfə uzadaraq Yunanıstandan Burqasadək çatdıra bilərsiniz. Avropa İttifaqı Sizdən daha çox təbii qazın təchiz edilməsi ilə bağlı kömək istəsə, Siz bu müraciəti mümkün qədər tez bir zamanda təmin etməyə hazır olacaqsınızmı?***

-Sözsüz ki, bizim qaz strategiyamız çox aydın və açıq olub. Biz uzun illər ərzində bu mühüm layihəni həyata keçirmək üçün Azərbaycanda çox iş gördük, tərəfdaşlarla birgə işlədik. Bu, XXI əsrin ən böyük infrastruktur layihələrindən biri hesab olunur. Uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizi Bakıdan Adriatik dənizinin dibi ilə, yüksək dağlıq ərazilərdən keçərək İtaliyaya çatır. Bu, texniki baxımdan çox mürəkkəb və əlbəttə ki, çox bahalı layihədir.

Ardı Səh. 4

# İlham Əliyev:

# "Biz Azərbaycanı Avrasiyanın nəqliyyat habına çeviririk"

## Prezident İlham Əliyev Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib

Əvvəli Səh. 3

Azərbaycan Cənub Qaz Dəhlizinin 4 seqmentinin hamısında əsas maliyyə yükünü öz üzərinə götürüb. Ötən ilin dekabrında layihənin tam başa çatmasından əvvəl biz artıq istehlakçılarla müqavilələr imzalamışdıq. Bizim qazımız müqavilə əsasında alındı və qiymətlə bağlı, belə deyək, qaz böhranı zamanı bizim istehlakçılar heç bir dəyişiklik hiss etmədilər.

Gələcək planlarımız barədə danışırıqsa, sözsüz ki, hasilatı artırmaq, ixracı artırmaq imkanı var. Lakin bu, sözsüz ki, avropalı istehlakçıların tələbindən asılı olacaq. Avropa Komissiyası bu prosesdə bizə kömək göstərdi. Biz Cənub Qaz Dəhlizinin Məşvərət Şurasını mütəmadi olaraq Bakıda Avropa İttifaqının nümayəndələri və Azərbaycanın sədrliyi ilə bir araya gətiririk. Növbəti sessiya gələn ilin fevralında keçiriləcək, orada biz bütün məsələlərlə məşğul olacağıq və gələcək addımlarımızı planlaşdıracağıq. Bu, şirkətlərin, bankların və ölkələrin böyük bir qrupudur. İndi komanda böyüyür, çünki biz artıq Avropanın təchizatçısı olmuşuq. Yanvarın 1-dən başlayaraq biz İtaliya, Yunanıstan və Bolqarıstanı 7,2 milyard kubmetr qazla təchiz etmişik. Gələn il bu, 9 milyard, 2023-cü ildə azı 11 milyard kubmetr olacaq. Beləliklə, bu, ciddi artımdır. Lakin hasilatı artırmaq üçün biz, əlbəttə ki, investisiya yatırmalıyıq və bunu etmək üçün bizim istehlakçılarla müqavilələrimiz olmalıdır. Beləliklə, birincisi müqavilələr, ikincisi investisiya və üçüncüsü qaz. Prosesin mərhələlərinin ardıcıllığı belədir. Lakin biz hazırıq, sizin qeyd etdiyiniz kimi, nəhəng yataqlarımız var, tam yeni, müasir infrastrukturumuz var, Avropanın digər yerlərinə də bağlayıcıların çəkilməsi mümkündür. Siz Balkanları qeyd etdiniz və mən Mərkəzi Avropanı əlavə edərdim. Bu, bizim üçün təchizatın şaxələndirilməsi və istehlakçılar üçün şaxələndirmə olacaq.

*-Bəli. Gəlin zənn edək ki, hər şey doğru istiqamətdə gedir. Siz hasilatı, Avropaya ixracı artıracaqsınız. Siz Rusiyanın reaksiyasından qorxmursunuz? Çünki Rusiya Sizin çox mühüm iqtisadi tərəfdaşınızdır, həmçinin regionda nəhəng gücdür. Sizdən xeyli çox qaz ixrac etməsi faktdır. Lakin bu, rəmzi addım ola bilər. Siz Rusiyanın reaksiyasından qorxmursunuz?*

-Xeyr, qətiyyən. İlk növbədə, bu məsələ ölkələrin liderləri arasında heç vaxt yüksək səviyyədə müzakirə olunmayıb. Bizim neft kəmərlərindən tutmuş, qaz kəmərlərinədək bütün enerji layihələrimiz regionda çox dostyana mühitdə tamamlanıb. Bu, birincisi. İkincisi, Rusiya bizim siyasətimizə, xarici siyasətimizə, enerji siyasətimizə tam hörmət edir. Biz rəqib deyilik. Dəfələrlə qeyd etdiyim kimi, bu məsələlər bəzən süni şəkildə şişirdilir. Biz heç bir halda Rusiyanın rəqibi deyilik. Çünki Rusiya Avropanı yüz milyardlarla kubmetr qazla təchiz edir və Rusiya qazına tələbat artır. Azərbaycan yeni başlayıb və qeyd etdiyim kimi, bizim Avropaya təchizatımız 2023-cü ildə 11 milyard kubmetr olacaq və əgər yeni müqavilələrimiz olmasa, yeni hasilata investisiya yatırmasaq, bu, belə qala bilər. Ona görə də, bu, heç bir halda bizim Rusiya ilə çox müsbət və yaxşı balanslaşdırılmış münasibətlərimizdə mənfi rol oynaya bilməz.

*-Gəlin, Sizin iqtisadiyyatınıza keçək. Ölkəniz enerji, əsasən, neft və təbii qaz ixracından asılıdır. Düşünürəm ki, iqtisadi şaxələndirmə prosesi bu gün Sizin üçün prioritetdir. Açığını desək, indiyədək bu proses çox yavaş gedib. Siz necə sürətləndirmək niyyətindəsiniz? Onu irəliyə aparmaq üçün hansı hədəfiniz var?*

-Bizim iqtisadiyyatın quruluşuna gəlincə, hesab edirəm ki, neft və qazın ÜDM-də həcminin əhəmiyyətli dərəcədə azaldılmasına nail olmuşuq. Uzun illər bundan öncə neft və qazın ÜDM-də payı mütləq çoxluq təşkil edirdi, indi isə yarıdan da azdır. Beləliklə, Azərbaycan iqtisadiyyatının strukturu daha çox balanslaşdırılmış oldu. Lakin bizim ixracımıza gəldikdə, əlbəttə ki, ixracın 90 faizindən çoxunu neft, təbii qaz, neft məhsulları və elektrik enerjisi təşkil edir. Ölkə üçün bu üstünlükdür, çünki biz bazarlara daxil ola bildik, biz neft, təbii qaz, elektrik enerjisi, neft-kimya və neft məhsulları ixrac edirik və bunlar da iqtisadiyyatımıza çoxlu maliyyə axını gətirir. Qazı nə qədər çox ixrac etsək, - çünki qazın həcminin artması açıq-aşkardır, - qeyri-neft məhsullarının ixrac əməliyyatlarında payı bir o qədər də azalır. Neft və qaz üçün biz bazarları axtarmalı deyilik. Neft dünya bazarındadır, qazın artıq bazarı var. Lakin digər, məsələn, kənd təsərrüfatı məhsulları kimi məhsullarımız üçün biz regional bazarlarla məhdudlaşırıq. Avropa bazarına daxil olmaq çox çətindir, çünki Avropa bazarında ölkələr özləri bir-biri ilə rəqabət aparır. Beləliklə, biz əsasən Türkiyəyə, Rusiyaya və bəzi digər ölkələrə ixrac edirik. Deyərdim ki, bu il o baxımdan çox əlamətdar oldu. Qeyri-enerji layihələrinin ixracı 45 faiz artdı. Bizim energetikaya aid olmayan sənayemiz 20 faiz artdı. Bu, həqiqətən də əlamətdar nəticədir. Yenə də ixracın həcmində qeyri-neft seqmentinin nisbəti aşağıdır. Lakin hesab edirəm ki, bu seqment artacaq, xüsusilə azad edilmiş ərazilərdə yeni imkanları və kənd təsərrüfatının, turizmin, bərpa olunan enerjinin və sənayenin nəhəng potensialını nəzərə alsaq. Beləliklə, biz gələcəkdə neft və qazdan asılılığı azaltmağı planlaşdırırıq. Lakin eyni zamanda, biz başa düşməliyik ki, gələcək bir neçə onilliklər ərzində neft və qaz bizim iqtisadiyyatımızda vacib rol oynayacaq.

> "Azərbaycanda media ilə bağlı məhdudiyyətlər yoxdur, bizdə azad internet var və senzura mövcud deyil. Azərbaycan əhalisinin 80 faizindən çoxu internet istifadəçisidir"

*-Gəlin İtaliyaya keçək. Çünki İtaliya Azərbaycan üçün çox maraqlıdır. İtaliya Azərbaycanın ilk xarici ticarət tərəfdaşı olub, Roma və Bakının yaxşı münasibətləri var. Təbii qazdan əlavə olaraq Azərbaycan aparıcı neft təchizatçısıdır. Azərbaycan iqtisadiyyatının şaxələnməsində italyan şirkətləri üçün imkanlar varmı? Məsələn, Siz azad edilmiş əraziləri yenidən qurmaq niyyətində olduğunuzu dediniz. Hətta yaşıl resurslarla bağlı həyata keçirilə biləcək çoxlu layihələr var.*

-Əlbəttə ki, İtaliya nəinki təkcə Avropa qitəsində, dünya miqyasında bizim ən yaxın tərəfdaşlarımızdan biridir. Hesab edirəm ki, indi münasibətlərimiz çox yüksək səviyyədədir. Bunun göstəricisi odur ki, biz strateji tərəfdaşlıq haqqında sənəd imzalamışıq. İtaliya Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənəd imzaladığı Avropa İttifaqına üzv olan 9 dövlətdən biridir. Prezidentlərin və digər hökumət rəsmilərinin yüksək səviyyəli səfərləri olub. Sizin qeyd etdiyiniz kimi, İtaliya bizim əsas ticari tərəfdaşımızdır. İndi isə Transadriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan İtaliyanın mühüm təchizatçısına çevrilib. İtaliya istehlakında Azərbaycan qazının həcmi ilbəil artacaq. Eyni zamanda, dost ölkə olaraq İtaliya bizim azad edilmiş ərazilərdə fəaliyyət göstərmək üçün dəvət etdiyimiz ilk ölkələrdən biri olub. Birincisi Türkiyə idi, ikincisi İtaliya. Sizə deyə bilərəm ki, hazırda italyan şirkətlərinin orada icra etdiyi çoxlu layihələr var. Biz italyan memarlarını Şuşadakı tarixi abidələrimizi və məscidlərimizi bərpa etmək üçün dəvət etmişdik. Bu, çox rəmzi məna daşıyan bir jestdir, çünki Şuşa bizim üçün müqəddəs yerdir. Şuşa Azərbaycanın mədəni paytaxtıdır. Dini məkanlar isə hər kəs üçün müqəddəsdir. Bu, çox yüksək səviyyəli etimaddır. Bu yaxınlarda Şuşaya səfər edəndə işlərin necə görəcəklərini mənə nümayiş etdirən italyan şirkətlərinin nümayəndələri ilə görüşdüm. İtalyan şirkəti Bakıda Zəfər Muzeyinin tikintisinə fəal şəkildə cəlb olunub. Bu, rəmzi məna daşıyan digər bir jestdir, çünki siz bu tarixi Qələbənin bizim üçün nə qədər böyük məna daşıdığını təsəvvürünüzə gətirə bilərsiniz. Biz tərəfdaşlığımızı nümayiş etdirmək üçün və italyan şirkətlərinin yüksək səviyyəli fəaliyyətini, zövqünü və ölkələrimiz arasında dostluq münasibətlərini nəzərə alaraq, məhz buna görə italyan şirkətini dəvət etdik. Mən sizə italyan şirkətlərinin çox fəal iştirak etdiyi azad edilmiş ərazilərdə və Azərbaycanın digər yerlərində çoxsaylı tikinti layihələrini qeyd edə bilərəm. Sizə deyə bilərəm ki, Prezident Mattarellanın ölkəmizə səfəri zamanı biz birlikdə italyan şirkəti tərəfindən tikilmiş neft-kimya zavodunun açılışını etdik. İndi isə eyni şirkət bizim neft emalı zavodumuzun yenidən qurulması üzərində fəal şəkildə işləyir. Bunlar bir neçə milyardlıq layihələrdir. Bu sahələr sənaye, neft-kimya məhsulları, tikinti, memarlıq, bərpa işləri, geniş diapazonlu məsələlərdir. Bir daha qeyd edirəm, bu, bizim dostluğumuzu və tərəfdaşlığımızı nümayiş etdirir.

*-İcazə verin, sonuncu sualımı verim. Azərbaycan fərqli ölkə olduğu üçün oradakı iqtisadi məsələlər haqqında eşitmək maraqlıdır. Beləliklə, Azərbaycan dünyada, Asiyada çox önəmli strateji mövqe tutur. O, nəinki enerji habına, eyni zamanda, Qərb və Şərq arasında, Çindən Avropaya qədər sanki bir kommersiya, nəqliyyat habına çevrilə bilər. Bu, iqtisadiyyatın şaxələndirilməsinin bir yolu da ola bilər, regionda sabitliyi təmin edə bilər. Eyni zamanda, bu, vəziyyətin sabitləşdirilməsi və sülhə nail olmaq üçün kömək edə bilər. Bu haqda nə düşündüklərinizi mənə deyə bilərsinizmi?*

-Mən sizin fikrinizlə tamamilə razıyam. Əslində, biz bunu Azərbaycanda ən azından son onillikdə fəal şəkildə həyata keçiririk. Azərbaycanı Avrasiyanın nəqliyyat habına çeviririk. Bu, asan iş deyil, çünki bizim açıq dənizə çıxışımız yoxdur. Biz, birinci növbədə, qonşularımızla yaxşı münasibətlərdə olmalıyıq. Çünki bu münasibətlər olmadan heç bir ölkə tranzit ölkəyə çevrilə bilməz. Bu imkanı yaxşı regional əməkdaşlıq mühiti, üstəgəl nəqliyyat infrastrukturuna investisiya yaratdı. Lakin bu, asan deyildi, çünki biz çoxlu sərmayə yatırmalı idik. Bu gün, məsələn, Azərbaycanda bizim altı beynəlxalq hava limanımız var və azad olunmuş ərazilərdə üç beynəlxalq hava limanımız var. Birinin açılışı artıq olub, ikisi də olacaq. Biz ölkəmizi bütün qonşu ölkələrlə birləşdirən dəmir yolu sistemini şaxələndirdik. Bizim müasir magistral yollarımız var. Yeri gəlmişkən, Davos Forumunun reytinqinə əsasən, Azərbaycan yolların keyfiyyətinə görə 27-ci, hava nəqliyyatı xidməti və dəmir yolu nəqliyyatı xidmətinə görə 11-ci və 12-ci yerdə qərarlaşıb. Beləliklə, bu, artıq baş verir. Biz artıq Mərkəzi Asiyadan gələn mallar üçün tranzit ölkəyə çevrilmişik. Çin də öz mallarını Avropa məkanlarına daşıyır. Üstəgəl, əlavə üstünlük ondan ibarətdir ki, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizi üzərində yerləşir. Bu dəhliz Şimali Avropa, Rusiya, Azərbaycan, İran və Fars körfəzindən keçir. Dəmir yolu və avtomagistral olmasından asılı olmayaraq, Şimal-Cənub dəhlizinin Azərbaycan seqmentində aparılan bütün tikinti işləri artıq tamamlanıb. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindən sonra hər yerdə artıq Zəngəzur dəhlizi adlandırılan yeni dəhlizi açmaq üçün imkan var. O, Azərbaycandan Ermənistana və oradan Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gedərək Türkiyə və Avropaya qədər uzanır, bu da nəqliyyat üçün alternativ marşrut olacaq. Üstəgəl biz Bakının yaxınlığında Ələt qəsəbəsində yerləşən azad iqtisadi zonanın yaradılması üzərində fəal çalışırıq. Bu zona gələn il fəaliyyətdə olacaq. Ümid edirik ki, bu coğrafi mövqe, artıq şaxələnmiş nəqliyyat şəbəkəsi bizə orada çalışmağa üstünlük verən investorları cəlb etməyə kömək edəcək. Beləliklə, nəqliyyat sektoru enerji sektorundan sonra aparıcı sektorlardan biri olacaq və bu komponentə yatırılmış investisiyalar, əlbəttə ki, çoxlu mənfəət gətirir. Mən üstəlik Xəzər dənizində ən böyük ticarət limanının açılışını qeyd edərdim. Onun yükaşırma gücü 25 milyon tona qədər arta bilər. Gəmiqayırma zavodunun tikintisi. Biz artıq özümüzü bütün növ yük gəmiləri, tanker və bərələrlə təmin edirik. Beləliklə, bu, həqiqətən də böyük aktivdir. Üstəgəl sizin qeyd etdiyiniz kimi, Azərbaycandakı sabitlik, etibarlılıq. Çünki biz heç vaxt heç bir müqaviləni pozmuruq, müqavilədə olan hətta bir sözü belə pozmuruq. Odur ki, bizim tərəfdaşlar bizə etibar edir və bütün qonşularımızla yaxşı münasibətlərimiz var. Əlavə olaraq, ümid edirik ki, Ermənistanla da münasibətlər normallaşacaq, dünən baş nazir Paşinyan və Prezident Mişellə müzakirə etdiyimiz kimi. Onda Ermənistanın da regional nəqliyyat şəbəkəsinin üzvü olmağa imkanı olacaq, çünki indi o, çıxılmaz vəziyyətdədir. Onun Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur, olacaq. Onun İranla dəmir yolu əlaqəsi yoxdur, Azərbaycan ərazisindən olacaq. Azərbaycan Ermənistan ərazisindən Naxçıvan Muxtar Respublikasına gedəcək. Burada uduzan tərəf yoxdur. Hesab edirəm, Ermənistanda bu qızıl fürsəti həqiqətən dərk etməlidirlər ki, onlar daha da fəal hərəkət etsinlər və bu gələcək planlarda bizə qatılmaq üçün tərəddüd etməsinlər.

*-Çox sağ olun, cənab Prezident.*

-Təşəkkür edirəm.

# Amerikalı politoloq:
# “Brüssel görüşü Soçi sammitində əldə olunan razılaşmaları daha da gücləndirdi”



**Amerikalı politoloq, Amerika siyasi xidmətinin direktoru Ceyson Smart Brüssel sammitinin nəticələri ilə bağlı ”Caliber” analitik mərkəzinə müsahibəsində maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımızın diqqətinə çatdırırıq.**

*- Şərq Tərəfdaşlığı sammiti fonunda Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərini necə qiymətləndirirsiniz?*

- Azərbaycanın Aİ ilə münasibətlərini inkişaf etməkdə olan kimi qiymətləndirirəm. Aİ çərçivələr üzərində həm işləyir, həm də işi qiymətləndirir: onlar digər ölkələrlə müəyyən təmas nöqtələrinə- ticarətə, dövlətlərarası siyasi və iqtisadi əlaqələrə, sosial islahatlara diqqət yetirirlər. Azərbaycanın timsalında onların bu əlaqələrin dəstəklənməsi üçün vacib olan prioritet sektorları da vurğulanıb.

*- Sizcə, Aİ ilə münasibətlər Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridirmi?*

- Mən bunu mühüm ikitərəfli əlaqələr adlandırardım. İqtisadiyyat baxımından bu, ilk növbədə, Aİ-dən investisiya sektoru və bazar, Azərbaycandan isə enerji və ixrac sektoru, yəni, neftdir. Vətəndaş cəmiyyətinin inkişafı, insan hüquqları və korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq da mühüm elementdir. Bu, hər iki tərəf üçün faydalıdır.

*- Azərbaycan 2009-cu ildən "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində Aİ ilə ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq edir. Sizcə, bu proqrama üzvlük Azərbaycana nə verir?*

- Bu cür tərəfdaşlıq sazişləri həmişə sabitləşmənin əlavə üsuludur- maliyyə və sosial. Şərq Tərəfdaşlığına üzv dövlətlər üçün nəzərdə tutulmuş ümumi vektorlar resursların maksimum səmərəliliyini və birgə işdən, kobud desək, səmərəliliyini təmin etmək üçün düzgün axınlara yönəldilməsinə kömək edir.

*- Azərbaycan və Ermənistan liderləri noyabrda Soçidə, bu həftə isə Brüsseldə görüşdülər. Sizcə, hansı görüş daha təsirli oldu?*

- Strateji baxımdan hər iki görüş vacibdir: Soçi görüşü regionda gərginliyin aradan qaldırılması üçün gələcək fəaliyyətlər üçün əsaslı zəmin yaratdı, Brüssel görüşü isə razılaşmaları gücləndirdi və konkretləşdirdi. Rəsmi Bakının dayanıqlı sülhə nail olmaq olan prioritetinə əməl etməsi, o cümlədən beynəlxalq ictimaiyyət üçün çox əlamətdardır.

***Tərcümə - Elçin Bayramlı***



# “Yolu azaraq
## Ermənistan tərəfə keçən iki hərbçimiz geri qaytarılıb”

Dekabrın 18-də gündüz saatlarında Laçın rayonunun dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun iki hərbi qulluqçusu müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hüseynov Teymur Ələddin oğlu və əsgər Mustafayev Murad Mikayıl oğlu əlverişsiz hava şəraitində yolu azaraq qarşı tərəfə keçib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aparılmış danışıqlar nəticəsində hərbi qulluqçuların bu gün geri qaytarılması təmin olunub.

# Arye Qut:
# “Avrasiyada heç bir ölkənin İsraillə münasibətləri Azərbaycan qədər yaxın deyil”

**Bir neçə gün bundan əvvəl İsrailin Baş naziri Naftali Bennet Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyi ilə görüşmək üçün özünün ilk rəsmi səfərini BƏƏ-yə edib. Lakin bu çətin məqamda bəzi ekspertlər fikirləşirlər ki, Baş nazir Bennet Azərbaycana səfər etsəydi, bu, daha yaxşı olardı. Çünki möhkəm təməllərə malik olan Azərbaycan-İsrail münasibətlərinin təşviqi ”Avraam Sazişi”nin inkişafı üçün həlledici məna kəsb edir.**

Bu barədə israilli jurnalist Raxel Avraam beynəlxalq münasibətlər sahəsində siyasi ekspert, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsrail nümayəndəliyinin rəhbəri Arye Qutun nüfuzlu Kanada-İsrail media platforması olan ”Thej.ca”ya müsahibə-məqaləsində yazır. Bildirilir ki, son 30 il ərzində İsrail və Azərbaycan möhkəm, etibarlı və strateji münasibətlər qurmağı bacarıb. AZƏRTAC xəbər verir ki, İsrailin Azərbaycandakı səfiri Corc Dik qeyd edib: ”Azərbaycan ilə münasibətlər 44 günlük Qarabağ müharibəsi zamanı sınaqdan keçirilib”. Səfir xatırladıb ki, 30 il bundan əvvəl İsrail Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. Onun sözlərinə görə, bu ölkələr arasında münasibətlər daha qədim tarixə malikdir və bütün müsəlman ölkələri arasında ən çoxsaylı yəhudi icması Azərbaycan ərazisindədir.

İsrailin sabiq müdafiə nazirinin müavini Efraim Sne əlavə edib ki, 1993-cü ilin dekabrında Prezident Heydər Əliyevlə ilk görüşünü, sonrakı illərdə Azərbaycana çoxsaylı rəsmi və qeyri-rəsmi səfərlərini xatırlayarkən o, iki ölkə arasında mövcud olan dostluq və möhkəm tərəfdaşlıqdan böyük məmnunluq duyur.

Beynəlxalq münasibətlər üzrə ekspert Arye Qut qeyd edir ki, Ermənistan bir neçə gün bundan əvvəl BMT-nin Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən Ermənistanın ”hərbçilərin dərhal qaytarılması”, ”Hərbi Qənimətlər Parkı”nın bağlanması” və ”Azərbaycan tərəfindən hərbi cinayətlərin təhqiqatı” barədə iddialarını rədd etməsi faktına qəzəblənib. Beynəlxalq Ədalət Məhkəməsi, həmçinin Ermənistandan azərbaycanlılara münasibətdə irqi ayrı-seçkiliyin qızışdırılmasının qarşısının alınmasını tələb edib.

Arye Qut qeyd edir ki, İkinci Qarabağ müharibəsində Ermənistan tam geosiyasi və hərbi fiaskoya uğrayıb. ”Şöhrət qazanmış erməni ordusu”nun imici 44 gün ərzində darmadağın edildi, bu işğalçı ordu tamamilə parçalandı.

”Mən işğaldan azad edilmiş ərazilərdə olmuşam. İlk andan məndə belə bir hiss var idi ki, işğalçı erməni ordusu azad edilmiş bu ərazilərdə yandırılmış torpaq taktikasını həyata keçirib. Praktiki olaraq, işğaldan azad edilən bütün ərazilərdə nə bir ev, nə bir uşaq bağçası və ya məktəb, nə də bir kitabxana və muzey yox idi. Bütün bu 27 il ərzində işğalçı erməni ordusu talançılıq və vandalizmlə məşğul olaraq Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan kimi gözəl şəhərləri yer üzündən silib.

Əzəli torpaqlarından qovulan bir milyon azərbaycanlı qaçqının və məcburi köçkünün, erməni faşizminin və vandalizminin bütün dəhşətlərini yaşayan, sadə və təlesiz insanların mövcudluğu erməni vandallarının bəşəriyyətə qarşı törətdikləri cinayətlərin canlı sübutudur.

Bu gün vaxtilə küçələrin və evlərin, məktəblərin və muzeylərin olduğu yerdə mən indi yalnız işğalçı erməni ordusunun yandırdığı qapı dirəklərini və sütunlarını, sökülmüş pəncərə çərçivələrini gördüm. Bütün xarabalıqlarda ağaclar bitib. ”Əgər ermənilər bu torpaqları özününkü adlandırırlarsa, o halda niyə bu ərazilər kabus-şəhər kimi görünür, niyə onlar bu şəhərləri nəhəng sayda mina ilə və tank üçün tunellərlə qoyub gediblər, görəsən ermənilərdə Vətən belə kabus görünürmü?”, - deyə Arye Qut belə bir ritorik sualla müraciət edir.



Arye Qut bu faktlarla yanaşı, rəsmi Bakı ilə Təl-Əviv arasında strateji münasibətlərin uğurlu inkişafını qeyd edərək deyib: ”Avrasiyada heç bir ölkə İsraillə Azərbaycan qədər möhkəm, səmimi, strateji və dostluq münasibətlərinə malik deyil. Azərbaycan İsraillə sıx, hərtərəfli və yaxın qardaşlıq münasibətlərini dəstəkləyir”.

Onun fikrincə, Ermənistan o faktla razılaşa bilmir ki, Azərbaycan regional mərkəz, İsrailin Cənubi Qafqazda mühüm strateji tərəfdaşıdır və bu tərəfdaşlıqdan keçmiş sovet blokunun heç bir digər ölkəsinin malik olmadığı hərtərəfli üstünlük əldə edir.

Lakin Arye Qut vurğulayıb ki, İsrail tərəfindən Azərbaycana bu cür münasibətin səbəbi var. O deyib: ”Bir çox xalqlardan fərqli olaraq, azərbaycanlılar yəhudiləri heç vaxt əcnəbi hesab etməyib və onlara cəmiyyətin ayrılmaz hissəsi kimi yanaşırlar. Milli azlıqlara hörmət və dözümlülük Böyük İpək Yolu dövründən indiyədək ölkənin inkişafında həyati əhəmiyyətli rol oynayıb”.

Ekspertin sözlərinə görə, İkinci Qarabağ müharibəsi dövründə və müharibəyə qədər olan dövrdə, həmçinin müharibədən sonra İsrailin Azərbaycana verdiyi yardım və dəstək bir daha göstərdi ki, Azərbaycanla İsrail arasında sıx hərbi-texniki və strateji tərəfdaşlıq mövcuddur. Bu tərəfdaşlıq Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də vurğulanıb. O bəyan edib ki, Azərbaycan yəhudiləri ölkənin ictimai-siyasi həyatında mühüm, dəyərli rol oynayır və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına böyük töhfələrini verirlər.

Qeyd etmək yerinə düşər ki, bu ilin noyabrında - Azərbaycanın Ticarət və Turizm nümayəndəliyi İsraildə rəsmi şəkildə fəaliyyətə başladığı vaxtda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov açılış mərasimində deyib: ”Biz strateji münasibətlərimizdə yeni mərhələyə çıxmışıq. Bizim əməkdaşlığımız möhkəm köklərə malikdir, münasibətlərimiz çoxsaylı əlaqələr sayəsində möhkəmlənib və genişlənib. Biz fəxr edirik ki, münasibətlərimiz böyük multikulturalizm və dözümlülük ənənələrinə əsaslanıb, yəhudilər və müsəlmanlar bir-birinə böyük hörmət və diqqətlə yanaşırlar. Bu, xalqlarımızın birgə uğurudur”.

İsrailli ekspert Arye Qutun fikrincə, Azərbaycan tolerantlığının və multikulturalizminin ən parlaq nümunəsi ölkənin yəhudi icmasına səmimi və qardaşlıq münasibətidir. O deyib: ”Bu gün məşhur Qırmızı Qəsəbədə təqribən dörd min yəhudi yaşayır, üç məktəb və üç sinaqoq fəaliyyət göstərir. Bununla fəxr etmək olar. Burada ivrit dilinin öyrənilməsi, artefaktlar və iudaizmin maddi mədəniyyət nümunələri, Azərbaycan xalçalarının zəngin naxışları, müxtəlif mədəniyyətlərin və xalqların qaynayıb-qarışması, bütün bunlar mədəni və konfessiyalararası tolerantlığa verilən möhkəm və etibarlı töhfədir ki, Azərbaycan bu gün real şəkildə buna nail olub.

Tezliklə burada dünyada birinci Dağ Yəhudiləri Muzeyi rəsmi şəkildə açılacaq. Yaradılmasının təşəbbüskarları rusiyalı xeyriyyəçilər, vaxtilə Qırmızı Qəsəbədə yaşayan German Zaxaryayev, Qod Nisanov və Zarax İliyev olan nadir sərgi məkanı Azərbaycanın Quba rayonundakı Qırmızı Qəsəbənin Karçoq sinaqoqunun binasında yerləşəcək. Beləliklə, qədim Qırmızı Qəsəbə - Azərbaycanın əsl fəxridir. Burada yəhudilər və azərbaycanlılar əsrlərboyu sevgi və harmoniyada yaşayır, özlərini həqiqətən doğma qardaş hesab edirlər.

Ölkənin yəhudi icmasına səmimi və qardaşlıq münasibətləri Azərbaycan dözümlülüyünün və multikulturalizminin parlaq nümunəsidir. Arye Qut müsahibəsinin sonunda deyib: ”Azərbaycan 25 min yəhudinin yaşadığı, İslam dünyasında ən böyük yəhudi icmasına malik ölkədir. Biz unutmuruq ki, İkinci Dünya müharibəsi dövründə Azərbaycan faşizmdən xilas olan 50 min Avropa yəhudisi üçün əsl sığınacağa, daha sonra isə Vətənə çevrilib”.

# Azərbaycanın daha bir uğuru:

## BMT Prezident İlham Əliyevin təşəbbüsünü dəstəkləyir

**Azərbaycan bir çox müstəvidə olduğu kimi, pandemiyaya qarşı mübarizədə də liderliyini möhkəmləndirir. Artıq beynəlxalq ictimaiyyət Azərbaycan Prezidenti İlham Əliyevin COVİD-19 pandemiyasına, "peyvənd millətçiliyi"nə qarşı qlobal mübarizəsini və təşəbbüslərini dəstəkləyir.**

Dekabrın 16-da BMT-nin Baş Assambleyasında Azərbaycan tərəfindən Qoşulmama Hərəkatının adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamə qəbul edilib. 179 ölkənin dəstəyi ilə qəbul edilən qətnamənin əleyhinə heç bir ölkə səs verməyib. Bu, Azərbaycanın mövqeyinin nə dərəcədə güclü olduğunun göstəricisidir.

*Bu, dünyada Azərbaycana olan inamın və etimadın göstəricisidir*

### PANDEMİYAYA QARŞI MÜBARİZƏDƏ AZƏRBAYCAN HƏR KƏSƏ ÖRNƏK NÜMUNƏSİDİR

Pandemiyaya qarşı mübarizədə "Azərbaycan nümunəsi" hər kəsə örnək kimi göstərilir. Bu müstəvidə Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində COVID-19 pandemiyasına qarşı mübarizə naminə beynəlxalq səylərin səfərbər edilməsi sahəsində qlobal liderliyini davam etdirir. Sirr deyil ki, Hərəkat son on illərdə ən qüdrətli çağını məhz Prezident İlham Əliyevin sədrliyi dönəmində keçirir. Hərəkata sədrliyi dövründə Azərbaycanın Qoşulmama Hərəkatı üçün müfəssəl və iddialı qlobal fəaliyyət planı hazırlaması, COVİD-19 pandemiyasının dünyanı bürüməsi, yeni vəziyyətə Azərbaycanın cəld və adekvat reaksiyası, Azərbaycanın pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi istiqamətində irəli sürdüyü beynəlxalq təşəbbüslər Prezident İlham Əliyevin dövlətimizin nüfuzunu yüksəlməsi istiqamətində uğuru kimi səciyyələndirilir.

Pandemiya qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə pandemiyanın tüğyan etdiyi bir dövrdə Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev bir sıra qlobal təşəbbüslərlə çıxış edərək qlobal liderlik rolunu üzərinə götürdü, pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu. Bu sırada dövlət başçısının təşəbbüsü ilə Qoşulmama Hərəkatının 2020-ci ilin mayında təşkil edilmiş Zirvə toplantısını və 2020-ci ilin dekabrında 150-dən çox ölkənin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasını ayrıca qeyd etmək olar. Bununla yanaşı, xatırlayırsınızsa, koronavirusa qarşı vaksinlərin yeni istifadəyə buraxıldığı dövrdə bəzi ölkələr "peyvənd millətçiliyi" edərək onların bölünməsində qeyri-bərabərliyə üstünlük verirdilər. Əlbəttə, dünyada qlobal gücə çevrilən Azərbaycan rəhbərinin diqqətindən bu məqam yayına bilməzdi. Nəticədə, Prezidentin tapşırığı ilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamə 2021-ci ilin martında yekdilliklə qəbul olunub.

Azərbaycanın koronavirus pandemiyası ilə apardığı mübarizə bir daha onu göstərdi ki, ölkəmiz bu istiqamətdə qlobal səviyyədə liderliyini davam etdirir. Çünki Azərbaycan bəzi ölkələr kimi pandemiya ilə mübarizədə yaxasını kənara çəkmədi, əksinə, bütün müstəvilərdə xəstəliklə mübarizə zəminində hətta dünyaya da öz töhfəsini verdi. Pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu. Bəli, 2020-ci il, noyabrın 10-u. Azərbaycan Xalq-İqtidar-Ordu birliyi ilə Qarabağa qovuşdusa, tarixi ədalət bərpa olundusa, Qarabağ problemimizin Qalib Nidası qoyuldusa, pandemiyaya qarşı mübarizədə də bir olmalıyıq. Və bu gün Azərbaycan Prezidenti İlham Əliyevin atdığı hər bir uğurlu addımı xalqımızda nikbinlik yaradır. Xalqımızın öz Prezidenti ətrafında birləşməsi və ölkə rəhbərini dəstəkləməsi pandemiya üzərində qələbəni təmin edən başlıca amillərdən biridir. Bu gün bütün dünya Azərbaycanın təcrübəsini mənimsəyir. "Biz birlikdə güclüyük" şüarı ilə pandemiyaya qarşı savaşan Azərbaycan görünməmiş nümunə yarada bilib.

İnanırıq ki, bu çətinliklər arxada qalacaq, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə xalqımız daha gözəl günlər yaşayacaq. Dövlət başçımızın dediyi kimi: ""Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq".

### AZƏRBAYCAN MDB-DƏ COVID-19 ƏLEYHİNƏ VAKSİNASİYA SƏVİYYƏSİNƏ GÖRƏ LİDERDİR

Prezident İlham Əliyevin dediyi kimi: "Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur". Bu, aksiomadır. Bu gün bütün sahələrdə nümunə göstərən Azərbaycan bölgənin lider dövlətlərindən olaraq pandemiyaya qarşı mübarizədə göstərdiyi nümunə diqqətəlayiqdir. Hazırda Azərbaycan yoluxanların və vəfat edənlərin sayının azlığına, habelə yoluxma və sağalma hallarının nisbətinə görə ən yaxşı nəticələr nümayiş etdirən ölkələr sırasındadır. Azərbaycan dövləti infeksiyasının yayıldığı ilk günlərdən vəziyyəti nəzarətə götürüb, genişmiqyaslı tədbirlər həyata keçirməyə başlayıb, istər insanların sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, istərsə də koronavirus xəstələrinin müalicəsi, səhiyyə infrastrukturunun təkmilləşdirilməsi, yeni xəstəxanaların açılması və tibb müəssisələrinin texniki təchizatı baxımından bütün məsələləri uğurla həll edib. Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət bir daha göstərir ki, dövlətimiz üçün insan amili, vətəndaşların sağlamlığı, təhlükəsizliyi, ölkəmizin inkişafı və cəmiyyətimizin rifahı başlıca vəzifədir və bu məqsədə nail olmaq üçün bütün vasitələrdən istifadə olunur.

Qeyd edək ki, dünyanın bir çox ölkəsi ötən ilin dekabrından əhalini koronavirus infeksiyasına qarşı peyvəndlənməsinə başlayıb. Ölkəmizdə COVID-19-a qarşı vaksinasiya yanvarın 18-də start verilib və hazırda tam sürətlə davam edir. MDB ölkələrində koronavirusa qarşı peyvəndləmənin səviyyəsi barədə məlumatlara əsasən, regionda peyvəndləməyə ilk başlayan ölkələrdən biri olan Azərbaycan həm peyvənd olunma həcminə, həm də ondan istifadə sürətinə görə əksər ölkələri qabaqlayır. Belə ki, milli peyvəndləmə strategiyasına uyğun olaraq, sifariş edilmiş 4 milyon doza "CoronaVac" peyvəndi vasitəsi ilə risk qruplarına aid şəxslərin peyvəndlənməsi aparılır.

### PREZİDENT İLHAM ƏLİYEV: "DÜNYADA PEYVƏNDLƏRİN BÖLÜŞDÜRÜLMƏSİNDƏ MÜŞAHİDƏ EDİLƏN AYRISEÇKİLİK MƏYUSLUQ YARADIR"



Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusla videokonfrans formatında görüşü zamanı koronavirusa qarşı peyvəndlərin bölüşdürülməsində müşahidə edilən ayrıseçkilik məyusluq yaratdığını deyib. Azərbaycan Prezidenti dünyada pandemiyaya qarşı mübarizənin əhəmiyyətinə toxunaraq bəzi ölkələrin tələb olunandan daha çox peyvənd sifariş etdiyini, bəzi ölkələrin isə ciddi problemlərlə üzləşdiyini, peyvəndlərin ədalətli şəkildə bölüşdürülməsində müşahidə edilən ayrıseçkiliyin məyusluq yaratdığını diqqətə çatdırıb.

Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə Azərbaycan Prezidenti "peyvənd millətçiliyi", varlı və kasıb ölkələr arasında peyvəndlərə əlçatanlıqla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyə qarşı mübarizəni daim gündəlikdə saxlayıb. Azərbaycan indiyədək 80-ə yaxın ölkəyə birbaşa və ÜST xətti ilə maliyyə və humanitar yardım edib, bir sıra ölkələrə təmənnasız olaraq COVİD-19 əleyhinə vaksinlər göndərib.

Heç təsadüfi deyil ki, Prezidentt İlham Əliyevin tapşırığı ilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamə 2021-ci ilin mart ayında yekdilliklə qəbul olunması ayrıseçkiliyi göstərən ilk çıxış idi. Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasında peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qəbul edilən qətnaməyə bitərəf olan 7 ölkədən birinin Ermənistan olması heç də təəccüblü deyildi. Bu, Ermənistanın bütün məsələlərə siyasi prizmadan baxmasının, Azərbaycanın nailiyyətlərini qısqanclıqla qarşılamasının daha bir bariz nümunəsidir. Hazırda isə regionda ən effektiv mübarizə üsulunu məhz Azərbaycan həyata keçirir.

Heç təsadufi deyil ki, Azərbaycan koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları edib. Həmçinin, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü maliyyə töhfəsi ayırıb, bu yaxınlarda dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin təqdim edib.

Həmçinin, 2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində video müraciət vasitəsilə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin bir daha dünyada mövcud olan "peyvənd millətçiliyi"ni qınaması və Azərbaycan tərəfindən BMT Baş Assambleyasında müvafiq qətnamənin irəli sürüləcəyini elan etməsi də, məhz ölkə liderinin uğurudur.

### "ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI AZƏRBAYCANI PANDEMİYA İLƏ MÜBARİZƏ SAHƏSİNDƏ NÜMUNƏVİ ÖLKƏ ADLANDIRMIŞDIR"

"Biz 2021-ci ilin "Səhiyyə işçiləri ili" elan edilməsini alqışlayırıq.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə olduqca səmərəli əməkdaşlıq edir",- deyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, ötən il Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırmışdır.

Qoşulmama Hərəkatının 2020-ci ilin may ayında təşkil edilmiş Zirvə toplantısı, 2020-ci ilin dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası, 2021-ci ilin mart ayında Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamənin yekdilliklə qəbul olunması Azərbaycanın qazandığı beynəlxalq uğurdur.

Beləliklə, Azərbaycanın bu istiqamətdə daha bir təşəbbüsü BMT səviyyəsində dəstək tapdı. İlham Əliyevin humanitar prinsiplərdən çıxış edərək ədalətsiz bölgüyə qarşı sərt mövqeyi qlobal aləmdə rəğbətlə qarşılandı və Qoşulmama Hərəkatının beynəlxalq müstəvidə daha da gücləndirilməsinə töhfə vermiş oldu. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin daha bir il müddətə - 2023-cü ilə qədər uzadılması (2019-cu ilin oktyabrından sədrdir) Bakının qlobal çağırışlara münasibətdə daha aktiv rol oynayacağına gətirib çıxaracaq. Artıq Azərbaycan lider dövlətdir və Prezident İlham Əliyevin təşəbbüsləri beynəlxalq müstəvidə də dəstəklənir.

Ümumiyyətlə, bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, artıq ölkəmiz, xüsusilə, Azərbaycan Prezidenti İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasında beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Bu da onu göstərir ki, son 18 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisidir.

**RƏFİQƏ HÜSEYNOVA**




# Prezident İlham Əliyev

## sosial islahatların yeni mərhələsinə start verdi

### Dövlət başçısının imzaladığı 4 yeni sərəncam 1 milyona yaxın vətəndaşın rifahına dəstəkdir

Müasir Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi nəticəsində bu gün ölkəmizin sosial-iqtisadi tərəqqisi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşların marağı, rifahı dayanır. "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" - söyləyən Prezident İlham Əliyev ölkə əhalisinin sosial-rifah halının yaxşılaşdırılması üçün mühüm qərarlar qəbul etməkdədir. Təkcə başa vurduğumuz ötən il ərzində dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən sosial layihələr bunu deməyə əsas verir. Son illər aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində yoxsulluq və işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə azalıb, vətəndaşların maddi rifah halı yüksəlib. Qısa müddət ərzində minimum əmək haqqının təqribən iki dəfəyə yaxın artırılmaqla 130 manatdan 250 manata çatdırılması Azərbaycanda həyata keçirilən iqtisadi və struktur istilahatlar nəticəsində son dövrlər büdcə gəlirlərin artması, maliyyə imkanlarının genişlənməsi sosial sahəyə daha çox diqqətin göstərilməsinə daha bir əyani sübutdur. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəlməsinə, maddi və mənəvi rifah halının yaxşılaşmasına, Azərbaycanın müstəqil dövlət kimi güclənməsinə xidmət edir. Problemli kreditlərin həlli istiqamətində məlum sənədin imzalanması, maaşların, pensiyaların, minimum əmək haqqının, sosial müavinətlərin artırılması ölkədə sosial-iqtisadi islahatlarla bağlı növbəti mərhələnin başlanğıcı oldu.

#### MİNİMUM ƏMƏKHAQQI 300 MANAT MÜƏYYƏN EDİLİR

Bu günlərdə dövlət başçısının imzaladığı 4 yeni sərəncam isə 1 milyona yaxın vətəndaşın rifahına dəstəkdir. Bunlardan biri minimum aylıq əməkhaqqının məbləğinin artırılması barədədir. Sərəncama əsasən, ölkədə minimum aylıq əməkhaqqının məbləği 2022-ci il yanvarın 1-dən 300 manat müəyyən edilir. Yəni hazırda 250 manat olan minimum orta aylıq əməkhaqqı 50 manat artırılır. Bu artımla 800 min işçi əhatə olunur. Minimum əməkhaqqı artımı üçün illik əlavə maliyyə xərci 460 milyon manat təşkil edir. Qeyd edək ki, 2018-ci ildə minimum əməkhaqqı 130 manat idi. Beləliklə, hazırkı artım da nəzərə alındıqda minimum əməkhaqqında artım həmin dövrdən bəri 2,3 dəfə yüksəlib.

Onu da qeyd etmək yerinə düşər ki, minimum əməkhaqqı artımı əhalinin gəlirlərində artımı təmin etməklə, əmək bazarındakı proseslərə müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını, eyni zamanda əməyin leqallaşdırılmasını stimullaşdırır. Gələn il minimum əməkhaqqı 2022-ci il üçün nəzərdə tutulan yaşayış minimumunu (210 manat) 43 faiz üstələyəcək. Digər tərəfdən, bu artım ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti göstəricisinin də növbəti dəfə yüksəlməsinə imkan verəcək. Son üç ildə həmin nisbət 2018-ci ildəki 26,5 faizdən 2019-cu ildə 33,3, 2020-ci ildə 38 faizə yüksəlib. 2022-ci ildə isə təqribən 40-41 faiz səviyyəsinəcən artacaq. Bununla da həmin nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində daha bir irəliləyişə nail olunur.

#### YENİ ƏMƏKHAQQI ARTIMI 165 MİN TƏHSİL İŞÇİSİNİ ƏHATƏ EDİR

Prezident İlham Əliyevin imzaladığı yeni iki Sərəncam ölkəmizdə təhsil işçilərinin sosial müdafiəsinə diqqət və qayğı göstərilməsinin növbəti təzahürüdür. Sərəncamlarla 2022-ci il yanvarın 1-dən dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin maaşları orta hesabla 20%, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşları orta hesabla 40% artırılır. Həmçinin, 2022-ci il yanvarın 1-dən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin maaşları orta hesabla 20%, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşları orta hesabla 40%, fiziki tərbiyə rəhbərlərinin maaşları orta hesabla 30% artırılır. Təhsil müəssisələrində çalışanların əməkhaqqı artımı 165 min təhsil işçisinə şamil olunmaqla, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Artımların edilməsi məqsədlə dövlət büdcəsində 273 milyon manat illik əlavə vəsait nəzərdə tutulub.

#### MİNİMUM ƏMƏKHAQQI ARTIMI ÜÇÜN İLLİK ƏLAVƏ MALİYYƏ XƏRCİ 460 MİLYON MANAT TƏŞKİL EDİR

Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin maaşlarının minimum məbləğləri də bu Sərəncama uyğunlaşdırılacaq. Minimum əməkhaqqının artımı vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə artımlara imkan verəcək. Ümumilikdə minimum əməkhaqqı və VTC üzrə işləyənlərin əməkhaqqının artımı 800 min nəfərə şamil olunacaq. Dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə 400 min işçinin mövcud əməkhaqları yanvar ayından artacaq. Minimum əməkhaqqı artımı üçün illik əlavə maliyyə xərci 460 milyon manat təşkil edir.

Bu artım son üç ildə sosial sahədə inqilabi xarakter alan, bütün istiqamətlər üzrə sosial ödənişlərdə ciddi artımları təmin edən islahatların davamıdır. Dövlət başçısının Sərəncamları ilə minimum əməkhaqqında mütəmadi artımlar davamlı xarakter alıb. Son üç ildə mühüm irəliləyiş olaraq ölkəmizdə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb.

Minimum əməkhaqqı artımı əhalinin gəlirlərində artımı təmin etməklə, əmək bazarındakı proseslərə müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını, eyni zamanda əməyin leqallaşdırılmasını stimullaşdırır.Gələn il minimum əmək haqqı 2022-ci il üçün nəzərdə tutulan yaşayış minimumunu (210 manat) da 43% üstələyəcək. Digər tərəfdən, bu artım ölkəmizdə xalis minimum əmək haqqının xalis orta aylıq əmək haqqına olan nisbəti göstəricisinin də növbəti dəfə yüksəlməsinə imkan verəcək. Son üç ildə həmin nisbət 2018-ci ildəki 26,5%-dən 2019-cu ildə 33,3%-ə, 2020-ci ildə 38%-ə yüksəlib, 2022-ci ildə isə təqribən 40-41% səviyyəsinə yüksələcək. Bununla da həmin nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində daha bir irəliləyişə nail olunur.

#### ƏMƏK HAQLARI VAHİD TARİF CƏDVƏLİ İLƏ TƏNZİMLƏNMƏYƏN TƏŞKİLATLARDA ÇALIŞANLARIN DA MAAŞLARI ARTIRILDI

Prezident "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" da sərəncam imzalayıb. Həmin təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları da yanvarın 1-dən orta hesabla 20 faiz artırılır. Sərəncamda adı qeyd edilən təşkilatlar: AMEA-nın Rəyasət Heyəti və Aparatı, Gəncə bölməsinin Aparatı, Heydər Əliyev Mərkəzi, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Azərbaycanda Atatürk Mərkəzi, dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi. Daha sonra siyahıda Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin Aparatı, Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi, Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi, Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu, həmin nazirliyin tabeliyində fəaliyyət göstərən Quba şəhərində "Soyqırımı memorial kompleksi", Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Aparatının adı qeyd olunur. Sözügedən sərəncamla həmçinin Səhiyyə Nazirliyinin Məhkəmə - Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi, Təhsil Nazirliyinin Ərazi Maliyyə Hesablaşma Mərkəzi, Dövlət Turizm Agentliyinin Milli Kulinariya Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindəki Bakı Şəhər Məktəbəqədər Təhsil müəssisələri və Uşaq Evləri İdarəsi, icra hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıq işçilərinin də vəzifə maaşları yeni il yanvarın 1-dən 20 faiz artırılır. Deyilənlərə əlavə edək ki, son 4 ildə Azərbaycanda orta aylıq əməkhaqqında 37 faiz, median əməkhaqqında 74 faiz artım olub. Bu müddətdə əmək müqavilələrinin sayı 30 faiz artıb. Bütün bu müsbət proseslər nəticədə 4 il ərzində əməkhaqqı fondunda 92 faiz artıma imkan verib və həmin göstərici gələn il daha da artacaq.

Budur, ölkəmizdə vətəndaş rifahının təminatı istiqamətində islahatların növbəti mərhələsi. Dövlət başçısının verdiyi qərarlar əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi, sosial ödənişlərin artırılması istiqamətində növbəti mühüm addımların atılmasını təmin edəcək və ölkəmizdə sosial firavanlığın təminatı istiqamətində mühüm addımların gələcəkdə də davam edəcəyinə əminlik yaradır. Bir sözlə, bütün bunları xalqımız görür. Görülən işlər isə bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının, sağlamlığının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi: "Bütün iqtisadi göstəricilər onu deməyə əsas verir ki, biz düzgün istiqamətdə inkişaf edirik və qarşıda duran bütün vəzifələri icra edirik".

***RƏFİQƏ KAMALQIZI***

# Artımlar

## nikbin proqnozlar vəd edir

**Son illər ölkəmizdə əmək haqqlarının, pensialaların və digər ödənişlərin davamlı şəkildə artımını müşahidə edirik və sözsüz ki, bütün bunlar vətəndaşların rifah halının daha da yaxşılaşdırılmasına xidmət edir. Əlbəttə, qeyd olunan artımlar bizə onu deməyə əsas verir ki, vətəndaş amili ölkədə ən prioritet məsələdir və bu artımların davamlı xarakter alması həm də ondan xəbər verir ki, ölkə iqtisadiyyatında dinamik inkişaf var.**

Təbii ki, artımın daha da çox olmasını vətəndaşlar arzulaya bilərlər. Hətta, artım nə qədər çox olsa vətəndaşlar daha çox sevinərlər, bu onları daha çox qane edər, amma reallıqlar var və nəzərə almaq lazımdır ki, iqtisadiyyat burada mühüm rol oynayır və iqtisadi siyasət çərçivəsində sosial yönümlü tədbirlərin reallaşdırılması iqtisadi siyasətin ən mühüm və eyni zamanda ən mürəkkəb istiqamətlərindəndir. Əmək haqlarının, pensiyaların və digər ödənişlərin artımına zəmin olmalıdır, əhs halda bu mümkün deyil. Sosial yönümlü xərclərin artımı da özü-özünə baş verə bilməz və sözsüz ki, bunun üçün iqtisadiyyat sahəsində müvafiq zəmin yaranmalıdır və birinci növbədə də iqtisadi inkişaf buna təkan verməlidir.

Bir sıra Qərb ölkələrində, ABŞ-da əhaliyə valyuta emissiya olunduğunun şahidi oluruq və daha çox böhranla mübarizə çərçivəsində bunu müşahidə edirik. Təbii ki, insanlar arasında maraqlı suallar ortaya çıxa bilər. Məsələn, sual oluna bilər ki, niyə Qərb ölkələrində bu baş verir? Niyə həmin ölkələrdə belə emissiyalar olur, amma bizim ölkədə olmur? Bilmək lazımdır ki, elə bu sualların da cavabını iqtisadi proseslərdə axtarmaq, iqtisadi prosesləri təhlil etmək, ən azından nəzərdən keçirmək lazımdır. Nəzərə almaq lazımdır ki, həmin ölkələr dünyanın aparıcı ehtiyat valyutalarının emitentidir və nümunə üçün qeyd etmək lazımdır ki, həmin ölkələr istər Amerika Birləşmiş Ştatları dolları, istərsə də Avro olsun, imkanları daha genişdir.

Bizim ölkəyə gəldikdə isə, bizim özümüzdə də sözsüz ki, yenə də sosial xərclərin artımı ilə bağlı potensial var və bu istiqamətdə işlər də görülür. Əks halda sözügedə artımları müşahidə etməzdik. Son illərin göstəriciləri bəzi məqamlara aydınlıq gətirir və deyilənləri təsdiq edir. Son illərin statistikasına nəzər salsaq, Azərbaycanda son üç il yarım müddət ərzində minimum pensiaların 82 faiz artdığını, orta statistik pensiayanın həcminin 60 faiz artdığını görürük. Xüsusilə, son 10 il, yaxud 15 il ərzindəki dinamikaya nəzər salsaq, bir sıra məqamlara aydınlıq gətirə və kifayət qədər böyük artım olduğu qənaətinə gələ bilərik.



Əlbəttə ki, yenə də müxtəlif suallar yarana bilər. Məsələn, sual yarana bilər ki, əhali tam şəkildə bundan məmnundurmu, razıdırmı? Yaxud sual yarana bilər ki, əmək haqlarında, pensiyalarda, digər ödənişlərdə edilən artımlar bu gün əhalinin gözləntilərinə uyğundurmu? Sözsüz ki, biz sorğu da apara bilərik və bu sorğunun nəticələri birmənalı olmaya da bilər. Yəni, gözləntilərin daha böyük olan əhali qruplarına da rast gələ bilərik, amma qeyd etdiyimiz kimi, reallıqlar da var və sadəcə əskinasları çap edərək onu əhaliyə paylamaqla məsələni həll etmək mümkün deyil və nəzəri olaraq dediyimiz o paylanılan pulun arxasında əmtəə, daha çox istehsal dayanmayacaqsa, bu zaman fəlakət gözlənilə, daha dəqiq desək, inflyasiya prosesləri hədsiz dərəcədə sürətlənə bilər ki, bu da qəti şəkildə arzuolunmazdır. Bir sözlə, artım prosesi iqtisadiyyatdakı proseslə sinxronluq təşkil etməlidir və ilk öncə bunu dərk etmək lazım gəlir.

Maraqlıdır, nə tələb olunur və nə olmalıdır ki, artım prosesi iqtisadiyyatdakı proseslə sinxronluq təşkil etsin? Ümumiyyətlə, iqtisadi artım necə sürətləndirilir? Əlbəttə ki, ilk növbədə sərmayə qoyuluşları artmalıdır. Bəli, investisiyalar, sərmayə qoyuluçkarı artmalıdır ki, istehsal daha da artsın. Təbii ki, bunun, yəni istehsalın artımının da ardınca dövriyyə mütləq şəkildə artmalıdır. Dövriyyənin də artımının, ümumilikdə bütün bu proseslərin də məntiqi nəticəsi əmək haqlarının artmasına gətirib çıxaracaq. Xüsusilə qeyd edək ki, belə bir proses, yəni, sərmayə qoyuluşlarının, nəticədə də istehsalın daha da artması milli gəlirin təkrar bölgüsünə şərait yaradacaq, sosial ödənişlərin verilməsi üçün də imkanlar daha da genişləncək.

Bir məqama da xüsusilə diqqət etmək lazımdır ki, bir çox hallarda bəzi ekspertlər təəssüf ki, qonşu ölkələrtlə müqaisəli təhlillər aparırlar. Bu zaman da yanlışlıqlara yol vermiş olurlar. Pulu çap edərək insanlara paylamaq düzgün deyil, olmaz və dövriyyədə olan pulun arxasında mütləq şəkildə əmtəə dayanmalıdır. Əks halda çox sürətli bir inflyasiyanın da şahidi ola bilərik ki, bu heç də arzuolunan deyil. Digər tərəfdən iqtisadiyyatda müvafiq artım olmadan, əmtəə istehsalı olmadan pulun paylanılması əməyin demativasiyası deməkdir. Deyək ki, insanlar üçün açılan iş yerləri dövriyyənin artmasına gətirib çıxara, nəticədə də əmək haqqı arta bilər və bu təbii prosesdir. Yox əgər belə olmadan, yəni iş yerləri açılmadan, insanların məşğulluq səviyyəsi artmadan, eləcə də dövriyyə böyümədən sadəcə pullar emissiya edilərsə, bu məhz əməyin demativasiyasıdır.

Qeyd etdiyimiz kimi, pensiyaların, müavinətlərin, sosial təyinatlı ödəmələrin artımı, bütün bunlar iqtisadiyyatla bilavasitə bağlı məsələlərdir. Daha dəqiq və qısa şəkildə desək, sosial ödənişlərin artımı birbaşa dövlətin iqtisadi potensialından asılıdır və əgər biz son illər belə artımları mütəmadi olaraq müşahidə ediriksə, deməli, ölkəmizin iqtisadi potensialı daha da artmaqdadır ki, bunun öhdəsindən layiqincə gəlinir. Ən qısa şəkildə ifadə etmiş olsaq, istənilən artım barədə qərarın arxasında maliyyə vəsaiti, büdcə dayanmalıdır, əks halda bu qərar sözdən başqa bir şey olmaz. Real gəlirlər artmasa, sosial ödənişlərin həyata keçirilməsi baxımından dövlətin də imkanları geniş olmaz və əgər artımlar olunursa, deməli, real gəlirlər də artır ki, bu çox sevindirici haldır. Yaranmış milli gəlirin təkrar bölgüsü ilə deyil, onun yaradılması ilə bağlı köklü müsbət dəyişikliklərə nail olmalıyıq. Bunun da əsası investisiyadan, kapital qoyuluşundan keçir və investisiya, kapital qoyuluşu, istehsal olmasa biz daxili bazarı təmin etmək üçün idxaldan asılı olacağıq və bu da arzuolunan nəticələrə gətirib çıxara bilməz.

Sevindirici haldır ki, bütün dünya ölkələrində böhranlı vəziyyətin hökm sürdüyü bir zamanda, pandemiyanın zərərli təsirlərinə məruz qaldığı bir vaxtda ölkəmizin iqtisadiyyatında dinamik irəliləyiş müşahidə olunur və məhz bu imkan verir ki, əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün müvafiq addımlar atılsın, artımlar edilsin. Xüsusilə vurğulamaq yerinə düşərdi ki, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı, sənaye sahələri və digər sahələr üçün geniş imkan mövcuddur və bu imkanlar daha böyük uğurlar, nəticələr vəd edir. Təbii ki, bunun üçün, qeyd etdiyimiz kimi, sərmayə, kapital qoyuluşları, istehsalın genişləndirilməsi tələb olunur və bu istiqamətdə də uğurlu addımlar atılır. Ümumiyyətlə, ölkə iqtisadiyyatının bütün istiqamətlərində dövlətimizin, dövlət başçımızın, cənab Prezident İlham Əliyevin məqsədyönlü siyasəti daha böyük nəticələrə zəmin yaradır və artıq təsdiq olunan əmək haqqı, pensiya və digər artımların davamlı olacağına şübhə yeri qalmır. Əslində, sözügedən artımlar gələcək üçün nikbin proqnozlar vəd edir.

***İnam Hacıyev***

## Çingiz Qənizadə: "Vətəndaşların sosial rifahının qorunması Prezident İlham Əliyevin diqqətindədir"

Dünyanın əksər ölkələri yeni növ koronavirus (COVID-19) pandemiyasının mənfi təsirlərindən hələ də özünə gələ bilmədiyi bir vaxtda Azərbaycanda minimum əməkhaqqının və müxtəlif sahələrdə çalışanların əmək haqlarının artırılması düzgün müəyyənləşdirilmiş iqtisadi siyasətin nəticəsidir. Məlum olduğu kimi, bu günlərdə Prezident İlham Əliyev minimum əməkhaqqı və dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında sərəncamlar imzalayıb. Bu sərəncamlar ölkədə həyata keçirilən islahatların növbəti mərhələsidir. Son illər həyata keçirilən islahatlar, demək olar ki, bütün sahələri əhatə edir. Hətta koronavirus pandemiyasının dünyanı ağuşuna almasına baxmayaraq, nəzərdə tutulan sosial proqramların icrası istiqamətində qətiyyətli addımlar atılır.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə deyib. Ölkədə aparılan islahatlar barədə danışan hüquq müdafiəçisi qeyd edib ki, bütün bunlar dövlət idarəçiliyində yenilik, operativlik və moderinləşmə yaratmaqla yanaşı, vətəndaşların həyat tərəzinin daha da yaxşılaşdırılması, aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynayıb: "Bu, əhalinin güzəranının yaxşılaşdırılmasına öz müsbət təsirini göstərib. Son illər şəhid ailələrinin, qazilərin, əlillərin, məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, sosialyönümlü layihələrin reallaşdırılması istiqamətində tədbirlər davam etdirilib və əhatə dairəsi daha da genişləndirilib. Dövlət başçısının imzaladığı yeni sərəncamlarla ölkədə vətəndaş rifahının təminatı istiqamətində islahatların növbəti mərhələsinə start verilib".

Hüquq müdafiəçisi qeyd edib ki, sərəncamların qarşıya qoyduğu vəzifələrin icrası üçün ölkə müəyyən resurslara malik olmalıdır: "Belə resurslar özünü bütün sahələrdə açıq şəkildə büruzə verir. Azərbaycanın getdikcə möhkəmlənən iqtisadi qüdrəti bütün bunlara nail olmağımıza imkan yaradacaq. Dövlət başçısının sərəncamları ilə minimum əməkhaqqında mütəmadi artımlar davamlı xarakter alıb və son üç ildə ölkədə minimum aylıq əməkhaqqının 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılması mühüm irəliləyişdir. Minimum əməkhaqqının qaldırılması əhalinin gəlirlərində artımı təmin etməklə, əmək bazarındakı proseslərə də müsbət təsir göstərəcək".

O, həmçinin Azərbaycanın Vətən müharibəsindəki Qələbəsi və ötən müddətdən Qarabağda aparılan quruculuq işləri barədə də danışıb. Deyib ki, Qələbədən ötən müddətdə Qarabağda aparılan yenidənqurma və abadlıq işləri geniş vüsət alıb: "Hətta Prezidentin Sərəncamı ilə bu məqsədlə 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması məqsədilə Prezidentin 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondundan 1 milyon 391 min ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara alınıb. Bütün bunlara baxmayaraq, əhalinin həyat tərzinin daha da yaxşılaşdırılması Prezident İlham Əliyevin daim diqqət mərkəzində saxladığı zəruri məsələlərdəndir. Bu, dövlət siyasətinin prioritetinin məhz insan amili olmasınından xəbər verir. Hələ son deyil, növbəti illərdə əmək haqlarının artımı bütün sahələri əhatə edəcək".

## "Prezident İlham Əliyevin sosial sahəyə dair sərəncamları ölkəmizdə iqtisadi problemlərin minimuma endirilməsinə səbəb olub"

Prezident İlham Əliyevin imzaladığı son sərəncamlarla daha 732 min insanın sosial müdafiəsi gücləndirilmiş oldu. Bu məqsədlə dövlət büdcəsindən 200 milyon manat əlavə vəsaitin ayrılması nəzərdə tutulur. Bu fərman və sərəncamlarla bir çox kateqoriyadan olan şəxslərin təqaüdləri, müavinətləri artırılır. Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Musa Quliyev deyib.



Musa Quliyev bildirib ki, koronavirus pandemiyasının yaratdığı iqtisadi problemlər bütün dünya ölkələrinə öz təsirini göstərdi. Əlbəttə, bu təsir ölkəmizdən də yan keçmədi. Buna baxmayaraq, Prezident İlham Əliyevin sosial sahə ilə bağlı imzaladığı sərəncamlar iqtisadi problemlərin minimuma endirilməsinə kömək oldu. Son 3 ildə əməkhaqlarının 130 manatdan 300 manata qaldırılması da ciddi sosial islahatlardan biridir. Bundan əlavə, hazırda sosial müavinət və pensiya təminatının faizlər səviyyəsində diferensiallaşdırılmasına imkan yaradıldı. Bu dəyişikliklər zərfi qəbul edildikdən sonra "Sosial müavinətlər" və "Əmək pensiyaları" haqqında qanunlarda ciddi dəyişikliklərin olduğu müşahidə edildi.

"Son zamanlar aparılan islahatlar çərçivəsində pensiyaların və müavinətlərin "orqanizmin funksiyalarının pozulma" faizinə uyğun şəkildə artırılması ilə əlilliyi olan şəxslərin sosial müdafiəsini daha ədalətli və etibarlı şəkildə təmin edə biləcəyik", - deyə deputat fikirlərini yekunlaşdırıb.

# Milli Məclis "Media haqqında" qanun layihəsini təsdiqlədi

**Milli Məclisin dekabrın 20-də keçirilən iclasında "Media haqqında" qanun layihəsi ikinci oxunuşda təsdiqlənib. AZƏRTAC xəbər verir ki, bu sənəd Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 13-cü bəndlərinə uyğun olaraq, media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.**



"Media haqqında" qanun layihəsi 9 fəsil, 78 maddədən ibarətdir. Layihəyə əsasən, media subyektinə dair tələblər aşağıdakılardır:

- təsisçi fiziki şəxs olduqda Azərbaycan Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşı olmalıdır;
- təsisçi hüquqi şəxs olduqda onun nizamnamə kapitalında üstün iştirak payı (75 faiz) Azərbaycan Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşına (vətəndaşlarına) və (və ya) Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş hüquqi şəxsə (hüquqi şəxslərə) məxsus olmalıdır;
- media subyekti fiziki şəxs olduqda Azərbaycan Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşı olmalıdır;
- yuxarıda nəzərdə tutulmuş tələblər media subyektinin təsisçisi olan hüquqi şəxsin birbaşa və dolayısı ilə iştirakçısı olan şəxslərin iştirakçılarına da şamil edilir.

Layihəyə əsasən, aşağıdakı şəxslər media subyektinin təsisçisi (iştirakçısı) ola bilməzlər:

- ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilmiş şəxslər;
- məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər;
- məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslər;
- siyasi partiyalar (çap mediası istisna olmaqla);
- dini qurumlar (çap mediası istisna olmaqla).

Media subyektinin onun təsisçisi (iştirakçısı) olmayan xarici ölkələrin fiziki və ya hüquqi şəxsləri, onların filial və nümayəndəlikləri, həmin şəxslərin Azərbaycan Respublikasında təsis etdikləri hüquqi şəxslər, habelə xarici ölkələrin dövlət qurumları tərəfindən maliyyələşdirilməsinə yol verilmir. Audiovizual media subyektinin iştirakçılarının tərkibində hər hansı bir dəyişiklik edilməzdən bir ay əvvəl Şuraya məlumat verilməlidir. Şura dəyişikliyin bu Qanunun tələblərinə uyğun olması barədə bir ay müddətində əsaslandırılmış rəy verir. Verilmiş müsbət rəy əsasında audiovizual media subyektinin iştirakçılarının tərkibində edilmiş dəyişikliyi təsdiq edən sənədlər bir ay müddətində Şuraya təqdim olunmalıdır. Audiovizual media subyekti Şuraya, digər media subyektləri isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təsisçiləri və iştirakçıları, habelə idarəetmə orqanının rəhbəri barədə məlumatı hər il dekabr ayının 30-dək təqdim etməlidir.

Media subyektinin idarəetmə orqanının rəhbəri ali təhsilli olmalı, habelə qanunun tələblərinə cavab verməlidir.

Hazırda qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" Qanuna əsasən, kütləvi informasiya vasitələrini dövlət orqanları, bələdiyyələr, siyasi partiyalar (yalnız mətbu nəşrlər üçün), ictimai birliklər, idarə, müəssisə və təşkilatlar, Azərbaycan Respublikası ərazisində daimi yaşayan vətəndaşlar təklikdə və ya başqaları ilə birlikdə təsis etmək hüququna malikdirlər. Kütləvi informasiya vasitəsinin adında dövlət təşkilatlarının, beynəlxalq qurumların, idarə və müəssisələrin, yerli özünüidarəetmə orqanlarının adından istifadə olunmasına həmin qurumların razılığı ilə yol verilir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarını özündə əks etdirən (yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) və ya əvvəl təsis edilmiş digər mətbu nəşrlə eyni və ya oxşar ada malik olan mətbu nəşrlərin təsis edilməsinə yol verilmir. Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində kütləvi informasiya vasitəsi təsis etməsi Azərbaycan Respublikasının bağladığı dövlətlərarası müqavilə ilə tənzimlənir (xarici dövlətin hüquqi şəxsi dedikdə, hüquqi şəxsin nizamnamə kapitalının və ya səhmlərinin 30 faizindən çoxunun xarici dövlətlərin hüquqi şəxslərinə və vətəndaşlarına məxsus olduğu və ya təsisçilərinin 1/3 hissəsindən çoxunun xarici dövlətin hüquqi şəxsi və ya vətəndaşı olan hüquqi şəxslər başa düşülür). Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

# POLİTOLOQ: "Bu iki ölkə arasında normallaşma prosesinə töhfə verə bilər"



**"Avropa İttifaqının təşkilatçılığı ilə Azərbaycan və Ermənistan arasında 14 oktyabr tarixində keçirilən Brüssel görüşündə mina xəritələrinin verilməsi, hərbi əsirlərin qaytarılması kimi humanitar məsələlərdə razılıq əldə olundu". Bunu SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. O, qeyd edib ki, Azərbaycan təbii olaraq humanizm mövqeyindən çıxış edərək 10 hərbi əsiri geri verdi.**

Bu barədə Məhəmməd Əsədullazadə fikirlərini belə izah edib: "Brüssel görüşündə dəmiryolu xəttinin çəkilməsi də razılaşdırıldı. Beləliklə Azərbaycan və Ermənistan arasında müəyyən pozitiv ortam formalaşdı. Avropa İttifaqının vasitəçiliyi ilə 10 erməni əsirin qaytarılması Azərbaycan tərəfindən Avropa İttifaqına yandırılan bir yaşıl işıq kimi qiymətləndirilə bilər. Düşünürəm ki, Avropa İttifaqının vasitəçiliyi hər iki ölkənin maraqlarına uyğundur. Avropa İttifaqı bununla regionda həqiqi sülh və təhlükəsizliyin təmin olunmasında həqiqi vasitəçi ola bilər. 10 ermənin qaytarılması iki ölkə arasındakı normallaşma prosesinə töhfə verə bilər. Ancaq ilk növbədə Ermənistan tərəfi düşmənçilik mövqeyini aradan qaldırmalıdır".

*Turqay Musayev*

## Xalqımızın ən böyük arzularını gerçəkləşdirən QALİB LİDER

*HƏMİD PƏNAHOV, YAP Qazax rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən*



Tarix şəxsiyyətlər yetişdirir, digər həqiqət də ondan ibarətdir ki, şəxsiyyətlər də tarix yaradırlar. Ümummilli Lider Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan artıq 18 ildir ki, etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempi ilə uğurla irəliləyir. Zəmanəmizin dahisindən "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" qiymətini alan, bu inamı layiqincə doğruldan və ata vəsiyyətini yerinə yetirən, son 18 ildə Azərbaycanımızın tarixinə ancaq uğurlar, nailiyyətlər, qələbələr kimi yazılmaqla yanaşı, xalqımızın arzularını da gerçəkləşdirən Qalib Liderimiz, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarıdır. Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. Onun rəhbərliyi ilə Azərbaycan özünün bu illər ərzində milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

İlham Əliyev şəxsiyyəti təbəddülatlı dünyanın nəbzini tuta bilməklə yanaşı, həm də müdrik rəhbər kimi sübut etdi ki, vətənpərvərlik və milli təəssübkeşlik hissi olan zaman az müddətdə çox uğura imza atmaq olar. Mahir diplomat və müdrik dövlət xadimi olan İlham Əliyev hakimiyyətinin bütün illərində dövlət və xalq maraqlarını ən ali məqsəd kimi qarşıya qoydu. Hər zaman xalqının və dövlətinin milli maraqlarını müdafiə edən qətiyyətli Ali Baş Komandanımız milli mənafeyimizi beynəlxalq aləmdə böyük qətiyyətlə qorudu, Qarabağ həqiqətlərini ən nüfuzlu təşkilatlarda, tribunalarda müxtəlif dillərdə bütün dünyaya çatdırmaqla xalqın dili, səsi oldu. "Dəmir yumruğu" ilə düşmənin başını əzməyi bacardı. Bu uzaqgörən, düşünülmüş siyasətin nəticəsi olaraq, xalq və iqtidar birliyi daha sarsılmaz şəkil aldı. Bu birlik nəticəsində illərdi düşmən tapdağı altında qalan əzəli Vətən torpaqları Ermənistanın işğalçı silahlı qüvvələrindən azad edildi. Düşməni hərbi bacarığımızla yanaşı, həm də siyasi, iqtisadi gücümüzlə də iflic etməyi bacardıq. Hərbi əməliyyatlar zamanı darmadağın edilən düşmən Qalib Liderimiz Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri qəbul edərək, məğlubiyyətini etiraf etdi. Bu, Azərbaycan xalqının şanlı qələbəsidir. Bu Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının siyasətinin Qələbəsidir! Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin birgə bəyanatı bir daha sübut etdi ki, indi şərtləri Azərbaycan verəcək. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Bu qələbə xalqımızın əzmini, qəhrəmanlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Bu, Prezident İlham Əliyevin son 18 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasının Qələbəsidir.

Əgər müasir dövlətçiliyimizin memarı Ümummilli Lider Heydər Əliyevdirsə, bu gün tarixi torpaqlarımızın bərpasının Şah qəhrəmanı isə Ali Baş Komandan, Prezidentimiz İlham Əliyevdir. Artıq dünya birliyi Azərbaycanın gücünü gördü və anladı ki, haqq, ədalət uğrunda savaşa qalxan ölkə öz ərazi bütövlüyünü qısa müddətdə bərpa edəcək. Nəticəni də bütün dünya gördü və şahid oldu. Müasir və müstəqil Azərbaycanın qurucusu, Ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Cənab Prezidentimiz İlham Əliyev bu şərəfli yolu öz diplomatik məharəti, natiqlik bacarığı, yüksək elmi ilə uğurla davam etdirir. Vətən müharibəsində hər iki cəbhədə: hərb meydanında məğlubedilməz Ali Baş Komandan; informasiya meydanında proqmatik diplomat olduğunu isə bütün dünya ictimaiyyəti Cənab Prezidentimizin sayəsində görmüş oldu.

Tarixi qələbəmizdən dərhal sonra qüdrətli ordumuzun müzəffər Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva işğaldan azad edilmiş rayonlara səfər etdi. Bütün təhlükələrə, çətinliklərə baxmayaraq müqəddəs torpaq sevgisi, xalq məhəbbəti onların yol - yoldaşı oldu. "Ən böyük xoşbəxtlik, ən böyük qiymət odur ki, xalq səni dəstəkləsin" - deyən Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanı işğaldan azad edilmiş Qarabağ torpaqlarında xalq böyük coşqu, sonsuz sevgi ilə qarşıladı. Daha sonra Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını sonsuz səmalara qaldıran dövlətimizin başçısı İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva xalqı üçün böyük qürur, fəxarət hissi yaşatmaqla bərabər, həmçinin, bu torpaqların əzəli və əbədi türk yurdu olmasını dünyaya bir daha çatdırmış oldu.

Bəli, bu gün Qarabağ Azərbaycandır!ı bizə qaytaran Qalib SƏRKƏRDƏMİZ İlham Əliyev cənabları bu gün hər bir Azərbaycan vətəndaşı Sizinlə fəxr edir, belə güclü, qüdrətli dövlətin, məğrur, yenilməz xalqın nümayəndəsi olmağı ilə qürur duyur. Azərbaycan xalqının bütün istək və arzularını reallaşdıran, qürur və iftixar mənbəyimiz, Müzəffər Ali Baş Komandanımız Tanrı Sizi qorusun - QALİB SƏRKƏRDƏMİZ, REZİDENTİMİZ!

# "Yan"ların quluna çevrilənlər

Radikal müxalifətin respublikamızdakı satqınları, xarici ölkələrdə havadarlarının qoltuğuna sığınan tör-töküntüləri yenə də yas içərisindədirlər. Səbəbi də məlumdur. Xarici ölkələrə səfərləri zamanı böyük hörmətlə qarşılanan, çıxışları, hədəfə ünvanlanmış məntiqli açıqlamaları dəstəklənən, xarici KİV-lərə müsahibələrində hazırlıqlı, bacarıqlı, qətiyyətli lider olduğunu təsdiqləyən Prezident İlham Əliyevin diplomatik uğurları şeytan cildinə girmiş bu şarlatanları dərbədər edir. Dünya siyasətinin aktual problemlərinin həlli naminə beynəlxalq ictimaiyyətə ünvanlanan sülhsevər çağırışları ilə diqqəti cəlb edən, erməni faşizminin mahiyyətini açıqlayan Prezident İlham Əliyevə göstərilən hörmət, dövlət başçımızın siyasətinin dəstəklənməsi AXCP sədri Əli Kərimli tayfasını narahat edir. Bir neçə gün əvvəl Bakıda aksiya təşkil edərək təxribat törətməyə çalşan Əli Kərimlinin fitvasına uyanlar da hiss etdilər ki, "islahatçı sədr"in məqsədi, məramı bu yolla pul qazanmaqdır."



Azərbaycana qarşı şər, böhtan yağdırmaqda Əli Kərimlidən geridə qalmayan, ermənilərə rəğbətini "Kaş Paşinyan mənim prezidentim olardı" sözləri ilə bildirən Sevinc Osmanqızı da qəm dəryasına qərq olub. Brüsseldə Avropa İttifaqının (Aİ) təşəbbüsü ilə keçirilən Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində Ermənistanın baş naziri Nikol Paşinyanın qoltuğuna verilən xoruzun səsindən vəlvələyə düşən bu həpəndlər başqalarını sürüklədikləri labirintin dolaylarında fırlanırlar.

Beynəlxalq aləmdə qəbul olunmadığı üçün mötəbər tədbirlərdə diqqətdən kənarda qalan Paşinyan Brüssel görüşündə də eyni aqibəti yaşadı. Prezident İlham Əliyevin Brüssel görüşləri çərçivəsində NATO-nun Baş katibi Yens Stoltenberqlə, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə söhbətlərində kommunikasiyalar və nəqliyyat dəhlizləri ilə bağlı ölkəmizin təkliflərinin dəstəklənməsi, digər dövlət başçıları ilə görüşündə Avropa ölkələrinin işğaldan azad olumuş Azərbaycan torpaqlarında aparılan quruculuq işlərində iştirakla bağlı təkliflərin səslənməsi fonunda Nikol Paşinyanın sözlərinə əhəmiyyət verilməməsi dövlət başçımızın daha bir diplomatik qələbəsi idi.

Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində keçirilən Sammitin nəticələri ilə bağlı mövqeyini bildirən Şarl Mişelin bəyanatından aydın olur ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesi məhz Bakının təklifləri əsasında davam etdiriləcək.

Ermənistanı dəstəkləyənlərə növbəti zərbə isə "Madrid prinsipləri", "Lavrov planı", ATƏT-in Minsk Qrupunun "dirçəldilməsi" kimi səylərin fiaskoya uğraması oldu. Ermənistan baş nazirinə aydın şəkildə anlatdılar ki, proseslər 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il üçtərəfli sazişlər əsasında davam edəcək. Bəyanatda "Minsk Qrupu", "Dağlıq Qarabağ status"u" ifadələrinin çəkilməməsi Əli Kərimli kimi Sevinc Osmanqızını da mat vəziyyətinə salıb. İspaniyanın "El Pais" nəşrinə müsahibəsində dövlət başçımızın vurğuladığı kimi, Qarabağın statusu barədə müzakirələr artıq geridə qaldı. "Dağlıq Qarabağ münaqişəsi" bitib.

AXC-Müsavat iqtidarı dövründə Azərbaycanı parçalamaq üçün Naxçıvanın muxtariyyətinin ləğv edilməsi təklifini irəli sürən nadanlar üçün 10 noyabr 2020-ci ildə imzalanan kapitulyasiya aktının 9-cu bəndi ölüm fərmanıdır. Orada aydın yazılıb ki, Ermənistan bu əlaqənin maneəsiz fəaliyyətinə təminat verməlidir. ("Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir").

Şarl Mişelin bəyanatında "regionda kommunikasiya infrastrukturunun yaradılması, ölkələr arsında əlaqəni təmin edən xətlərin açılması və inkişaf etdirilməsi, dəmir yolu xəttinin çəkilməsi" ( Zəngəzur dəhlizi) ilə bağlı sözlərin yer alması bütünlükdə Aİ-nın Azərbaycana dəstəyidir. Yəni, Əli Kərimlinin "siyasi mühacir" bazarının məhsulu olan və Avropa ölkələrinin künc- bucağında dolanan, mətbəxində qarınlarını doyuran milli satqınlara da əhəmiyyət verən olmayacaq. Ermənistanda kütləvi aksiyaların davam etdiyi, baş nazirin istefasını tələb edənlərin sayının artdığı bir məqamda Sevinc Osmanqızı və Əli Kərimlinin Ermənistan iqtidarına rəğbətləri erməniliyin zirvəsi olan daşnak ideologiyasının əsiri olmaq, "yan"ların quluna çevrilməkdir. Türk dünyasının birliyini istəməyən, əksinə terrorçu Feto ilə əməkdaşlığını oğlu ilə birlikdə davam etdirən Əli Kərimli təbii ki, Zəngəzur dəhlizinin açılmasına tərəfdar olmayacaq. Çünki, bu dəhlizin açılması ilə onsuz da mövqeyi möhkəmlənən Azərbaycana maraq çoxalacaq, beynəlxalq aləmdə, dünya siyasətində, enerji və nəqliyyat xəritələrinin yenilənməsində rolu daha da artacaq. Belə ki, hazırda Əli Kərimlini və Sevinc Osmanqızını yemləyənlər bu satqınlar üçün dollar xərcləməyə ehtiyac görməyəcəklər. Satqınlıqları üzündən xalq tərəfindən lənətlənən hər iki əqidədaş qalacaqlar bir həsir, bir də Məmmədnəsir. O zaman Sevinc Paşinyanı məmnuniyyətlə özünə məxsus "Osmanqızı TV" kanalına prezident təyin edə bilər. Belə yerdə deyirlər ki, yuxun çin, Nikol sənin olsun.

***Xuraman İsmayılqızı***

# Minaların təmizlənməsi üçün idxal edilən mallar ƏDV-dən azad edildi

**Azərbaycana fərdi qoruyucu zirehli geyimlərin, alətlərin, minaaxtaran itlərin, partlayıcı və pirotexniki vasitələrin idxalı 5 il müddətinə vergidən azad edilir. SİA-nın məlumatına görə, bu məsələ Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" qanuna təklif olunan əlavələrdə öz əksini tapıb.**




Beləliklə, Məcəlləyə və qanuna əlavə olunan yeni maddəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, minaaxtaran itlərin, partlayıcı və pirotexniki vasitələrin idxalı 15 oktyabr 2021-ci ildən 15 oktyabr 2026-cı ilə qədər vergidən azad edilir. Qanun layihəsi müzakirələrdən sonra səsverməyə qoyularaq ikinci oxunuşda təsdiq edilib.

***Aysel Məmmədova***

POLİTOLOQ:

## "Ermənistan bölgədə gərginlik ocaqlarının səbəbkarıdır"

"Türkiyədə 3+3 formatında əməkdaşlığın qurulması və genişləndirilməsi ilə bağlı nəzərdə tutulan görüş Soçi və Brüssel görüşlərindən sonra keçiriləcək. İstər Rusiya, istərsə də AB-nin təşəbbüsü ilə keçirilmiş görüşlərdə münaqişə tərəfləri arasındakı münasibətlərin bugünkü durumu, habelə perspektiv inkişaf yolları müzakirə olunub". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.

Onun sözlərinə görə, hər iki görüşdə Ermənistan tərəfinin Moskva razılaşmasının şərtlərinin icra ediləcəyi, nəqliyyat dəhlizlərinin, habelə, dəmir yol xətlərinin açıla biləcəyi ilə bağlı verdiyi bəyanatlar Azərbaycan diplomatiyasının bölgədə sülh və sabitliyin, habelə nəqliyyat-kommunikasiya xətlərinin açılmasında maraqlı olan dairələrlə apardığı uğurlu danışıqlar nəticəsində mümkün olmuşdur: "Türkiyədə keçiriləcək görüşün daha bir əlamətdar halı ondan ibarətdir ki, Türkiyə də Ermənistanın məlum razılaşmalara əməl edəcəyi təqdirdə, onunla diplomatik münasibətləri bərpa etməyin, habelə, quru sərhədlərinin açılacağının mümkün olacağını bəyan etmişdir. Bu isə uzun müddət regionda gərginlik ocağı olan Türkiyə Ermənistan münasibətlərinin normallaşa biləcəyinin anonsu kimi qəbul olunur. Bu məsələdə Türkiyə həm AB-nin tövsiyələrini nəzərə alır və deməli, onunla da münasibətlərin öz maraqları müstəvisində inkişaf etdirilə biləcəyi ilə bağlı amillərə ümid edir, həm də bölgədə gərginlik ocaqlarının səbəbkarından olan Ermənistanı da regionda əməkdaşlığın genişləndirilə biləcəyi ilə oyuna cəlb edirlər. AB-nin qeyri-səmimi mövqeyinin olmayacağı halda, bölgədə dövlətlərarası münasibətlərin qarşılıqlı inam və etimad müstəvisi üzərinə gətirilməsi prinsip etibarı ilə mümkün ola bilər".

***Gülyana***

## "Azərbaycan təhsili üçün hökumət tərəfindən böyük işlər görülür"

*ŞƏRH EDİLDİ*



"İlk növbədə qeyd edim ki, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində Azərbaycan dövləti son illərdə çox böyük işlər görüb. Xüsusən əmək haqqlarının artırılması, eyni zamanda yeni məktəblərin tikilməsi, normal şəraitin qurulması istiqamətində çox böyük işlər görülüb və bugün Azərbaycan təhsili üçün hökumət tərəfindən böyük işlər görülür. Onların da bir hissəsi kimi 2022-ci il yanvarın 1-dən müəllimlərin əmək haqqlarının 20 faiz artırılması idi". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, son 5 il ərzində müəllimlərin əmək haqqında ciddi şəkildə artım müşahidə olunub və bu da tədrisin keyfiyyətinə öz təsirini göstərir: "Belə ki, son illərdə Azərbaycan şagirdləri beynəlxalq olimpiadalarda, yarışlarda və müsabiqələrdə böyük uğurlar əldə edirlər. Hesab edirəm ki, daha da ciddi islahatların həyata keçirilməsi mümkündür. Yəni, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində hal-hazırda mövcud qaydalara görə müəllimlərin bir stavka dərs saatı 18 saatdır. Hesab edirəm ki, müəllimlərin sosial vəziyyətinin daha da yaxşılaşdırılması, əlavə müəllimlərin sistemə qəbul edilməsi və gənclərin işlə təmin olunması üçün müəllimlərin dərs yükü bir stavka 18 yox, 12 saata salınmalıdır".

Kamran Əsədov sözlərinə belə davam edib: "İkinci bir addım biz müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması üçün onları vergi yükündən azad etməliyik. Yəni, müəllimlər hal-hazırda vergi ödəyirlər. aldıqları əməkhaqqından müəyyən bir qismini vergi qismində onlardan tutulur. Hesab edirəm ki, təhsil sahəsində çalışan müəllimlərin vergilərdən azad edilməsinə ehtiyac var. Yəni, aldıqları əməkhaqqları onları tam olaraq qane etməsi üçün düşünürəm ki, vergi azaldılmalıdır. Digər tərəfdən biz müəllimləri kommunal xərclərdən azad etsək daha effektiv olar, yəni, onlar aldıqları əmək haqqlarını özlərinə sərf etmiş olarlar. Bu əməkhaqqı artımı tədrisin keyfiyyətinə də öz müsbət təsirini göstərəcək. Yəni, 18 il stajı olan ali təhsilli 18 saat dərs deyən müəllim ona 700 manatdan çox əməkhaqqı yazılacaq. Bu kifayət qədər ciddi bir rəqəmdir".

"Etiraf edək ki, bölgələrdə müəllimlərin dərs saatları kifayət qədər yaxşıdır. Yəni, biz dağlıq ərazilərdə, eyni zamanda rayonlarda bilirik ki, müəllimlərin 36 saat dərsi var və həmin müəllimlər 1500 manata yaxın əməkhaqqı alacaqlar. Eyni zamanda Bakı şəhərində müəllimlər bu artımdan sonra ortalama 700-800 manat əməkhaqqı ala biləcəklər. Bu kifayət qədər yaxşıdır. Nəzərə alsaq ki, Azərbaycanda müəllimlər günün bütün saatlarını yox, yalnız dərsləri olduğu müddətdə məktəbdə olurlar və əlavə kifayət qədər də gəlir əldə etmək imkanları var. Ölkə Prezidenti tərəfindən artırılan əməkhaqqı müəllimlərin sosial vəziyyətinin ciddi şəkildə yaxşılaşdırılmasına gətirib çıxaracaq".

***Ayşən Vəli***



# Panik atak nədir?

**Qəfil və müntəzəm olaraq qorxu hissi ilə təsirləndiyiniz bir narahatlıq pozuqluğu panik atakdır. Demək olar ki, hər kəs müəyyən vaxtlarda narahatlıq və qorxu hissləri yaşaya bilər. Bu hiss gərgin, stresli və ya təhlükəli vəziyyətlərə təbii cavabdır. Ancaq panik atak pozğunluğundan əziyyət çəkən bir insanda narahatlıq və stress hissləri müntəzəm və tez-tez heç bir səbəb olmadan baş verir.**

Avropada əhalinin təxminən 3%-i bir ildə panik atak keçirirsə, ABŞ-da bu, təxminən 11%-dir. Panik atak qadınlarda kişilərə nisbətən daha çox rast gəlinir. Diskomfort adətən yeniyetməlik və ya erkən yetkinlik dövründə baş verir. Uşaqlar və yaşlılar bu xəstəlikdən daha az əziyyət çəkirlər. Tədqiqatçılar həmçinin panik atakların fobiyalar, obsesif-kompulsiv pozğunluq və ümumiləşdirilmiş narahatlıq pozğunluğu ilə əlaqəli olması ehtimalını araşdırdılar. Tədqiqatçılar öz məlumatlarını toplamaq üçün MEDLINE adlı verilənlər bazasından istifadə etdilər. Nəticələr belə nəticəyə gəldi ki, yuxarıda qeyd olunan pozğunluqlar genetik komponentə malikdir və irsi və ya genlər vasitəsilə ötürülür. Fobiyası olmayanlar üçün irsiyyət ehtimalı 30-40%, fobiyalar üçün isə 50-60% təşkil edir.

### Uşaqlarda Panik Atak

Panik pozuqluğu yeniyetmələrdə kiçik uşaqlara nisbətən daha çox rast gəlinir. Bununla belə, panik atakla mübarizə xüsusilə uşaqlar və yeniyetmələr üçün çətin bir təcrübə ola bilər. Şiddətli panik pozğunluğu onların inkişafına və öyrənməsinə təsir göstərə bilər. Panik atak əlamətləri göstərən uşaqlar mütləq həkimə aparılmalıdır.

Həkim uşağın xəstəlik tarixini nəzərdən



keçirəcək və simptomların hər hansı fiziki səbəbinin olub-olmadığını öyrənmək üçün hərtərəfli fiziki müayinə keçirəcək. Uşaqlarda çaxnaşma hücumlarına nəyin səbəb olduğunu müəyyən etməyə kömək etmək üçün digər narahatlıq pozğunluqları üçün skrininq də tələb oluna bilər, buna görə də ümumi fiziki müayinədən sonra əlavə qiymətləndirmə və lazım olduqda müalicə üçün müvafiq mütəxəssisə müraciət ediləcək.

### Panik atakların səbəbləri nələrdir?

Bir çox digər psixi pozğunluqlarda olduğu kimi, panik atakın da dəqiq səbəbi tam aydınlaşdırılmayıb. Bununla belə, vəziyyətin həyatda travmatik və ya çox stresli bir dövrlə, beyindəki amillərlə əlaqəli olduğu düşünülür.

### Simptomlar

Panik atak zamanı insan müxtəlif fiziki və zehni əlamətlərlə yanaşı, narahatlıq yaşayır. Bu simptomlar heç bir səbəb olmadan görünə bilər və olduqca tez görünə bilər. Panik atak insan üçün çox qorxulu və stresli bir vəziyyət ola bilər.

Panik atak simptomlarına aşağıda sadalanan simptomlar daxildir:

Qəfil tualet ehtiyacı, insana istilik gəlməsi, başgicəllənmə, özünüzü halsız hiss etmək, boğulma hissi, qorxu hissi və ya ölüm qorxusu, ümumi tərləmə, sinə ağrısı, sürətli ürək döyüntüsü, qulaqlarda cingilti, quru ağız, ürəkbulanma, nəfəs darlığı, tərləmə, soyuqlama, uyuşma və ya iynə batması hissi, bədənlə əlaqənin kəsilməsi hissi.

Panik atak zamanı yuxarıda göstərilən simptomlardan ən az dördü eyni vaxtda müşahidə olunur. Daha az müşahidə edilən vəziyyətlərə məhdud panik atak deyilir. Panik atak adətən 5-20 dəqiqə davam edir, lakin bir saata qədər davam edən hallar da müşahidə edilib.

Panik atakların sayı vəziyyətin şiddətindən asılı olaraq dəyişə bilər. Bəzi fərdlər ayda bir dəfə bu vəziyyətə məruz qalarkən, digər insanlarda həftədə bir neçə dəfə panik atak ola bilər.

Panik ataklar qorxulu olsa da, təhlükəli deyil. Görünən simptomlar insana birbaşa zərər vermir. Eyni zamanda, bu simptomların bir çoxuna asanlıqla digər şərtlər səbəb ola bilər. Məsələn, aşağı qan təzyiqi ürək döyüntüsünün sürətlənməsinə səbəb ola bilər.

### Panik Atak Diaqnozu

Panik atak diaqnozunu ancaq öz sahəsində mütəxəssis olan psixoloq qoya bilər. İlk növbədə xəstənin tibbi keçmişi alınır və lazımi fiziki müayinələr aparılır. Panik atak diaqnozu üçün birbaşa laboratoriya testi yoxdur. Bununla belə, həkimlər hücumların başqa bir əsas xəstəlikdən və ya panik atakdan qaynaqlandığını öyrənmək üçün bəzi testlər təyin edə bilərlər.

Xüsusilə hücumların tezliyi, tənginəfəslik yaşamağınızdan asılı olmayaraq başgicəllənmə, uyuşma və ya tərləmə kimi əlamətlər diaqnoz baxımından çox əhəmiyyətlidir.

Panik atak diaqnozunu aydınlaşdırmaq və digər xəstəlikləri istisna etmək üçün əvvəlcə ürək (EKQ) tələb oluna bilər. Ürək döyüntülərinin fərqli bir ürək xəstəliyi nəticəsində baş verib-vermədiyi araşdırılır. Daha sonra, tiroid hormonlarının səviyyəsini və hormonal balanssızlığın olub-olmadığını ölçmək üçün həkim tərəfindən bəzi qan testləri tələb oluna bilər.

### Panik atak necə müalicə olunur?

Panik atak xəstələrində əsas müalicə yanaşmasında həm psixoterapiya, həm də farmakoloji (dərman) müalicə üsullarından istifadə edilir. Terapiya psixoloji müdaxilələrin başındadır. Panik atak əlamətlərinin terapevt tərəfindən tədricən və təkrar-təkrar



yenidən yaradıldığı bu tətbiqlərdən sonra xəstənin panik atağın fiziki əlamətlərinin həyati təhlükəsi olan bir vəziyyətə işarə etmədiyini anlaması hədəflənir. Bu anlayış qurulduqdan sonra insan panik atak zamanı özünü daha rahat hiss edə bilər.

Nitq terapiyası panik atak müalicəsi çərçivəsində ilkin tibb müəssisələrində qiymətləndirilən və təsirli sayılan psixoterapiya üsuludur. Danışıq terapiyasında xəstə panik atak və panik pozğunluğu haqqında məlumat əldə edir və bu vəziyyətlərlə necə davranacağını danışaraq özünü inkişaf etdirə bilir.

Psixoterapiya üsulları ilə müalicədən nəticə əldə etmək həm səy, həm də vaxt tələb edən bir prosesdir. Ümumiyyətlə, xəstələr panik atak əlamətlərinin bir neçə həftə ərzində azaldığını hiss edirlər və bir neçə aylıq terapiyadan sonra bu simptomlarda əhəmiyyətli dərəcədə azalma ola bilər. Təkrarlanan hücumların qarşısını almaq və panik atakları nəzarət altında saxlamaq üçün terapiya planına sadiq qalmaq vacibdir.

Dərman müalicə planında istifadə olunan bir çox dərman növü var:

### Selektiv serotonin geri alma inhibitorları

Ümumilikdə təhlükəsiz sayılan və nisbətən az yan təsiri olan bu antidepresan dərman qrupu panik atak müalicəsi çərçivəsində ilk mərhələdə seçilən dərman növü olaraq qəbul edilə bilər.

Seçici noradrenalin və serotonin geri alma inhibitorları (SNRIs)

Panik pozğunluğunun müalicəsində istifadə edilən başqa bir antidepresan dərman qrupu olan SNRI'lar gələcək hücumların qarşısını almaqda da təsirli ola biləcək dərmanlardır.

### Benzodiazepinlər

Benzodiazepin mənşəli dərmanlar mərkəzi sinir sistemini boğaraq sakitləşdirici təsir göstərən dərmanlardır. Bu dərmanlar xüsusilə ani başlayan panik ataklarda istifadə olunur. Benzodiazepin mənşəli dərmanlar ümumiyyətlə qısamüddətli istifadə üçün uyğundur. Bu, uzun müddətli istifadədə vərdiş yaradan təsirlərlə bağlıdır. Bu cür dərmanlardan istifadə edərkən digər mülahizələrə digər dərmanlarla qarşılıqlı təsir və təhlükəli yan təsirlər daxildir.

### Beta-blokerlər

Beta-blokerlər panik ataklarla əlaqəli tərləmə, yuxululuq və çarpıntı kimi şikayətlərdə faydalı ola bilər. Müalicənizdə istifadə olunan hər hansı dərmanın effektivliyinə şübhə yaranarsa, həkimlər digər dərman qruplarına keçə bilərlər. Bəzi hallarda, bu dərman qrupları effektivliyini artırmaq üçün kombinasiya terapiyası çərçivəsində birlikdə istifadə edilə bilər. Dərmanların effektivliyi istifadə edildiyi tarixdən bir neçə həftə ərzində ortaya çıxır.

Bütün dərmanlar bəzi qarşılıqlı təsir və yan təsirlər riskinə malikdir, buna görə də hər hansı bir dərmanı istifadə etməzdən və ya istifadəsini dayandırmazdan əvvəl mütləq həkimlərdən dəstək alınmalıdır.

Panik atak tibbi bir vəziyyətdir, lakin müalicə dayandırıldıqdan sonra bəzi hallar təkrarlana bilər. Panik atakların müalicəsində dərmanla yanaşı, rahatlama və nəfəs məşqləri də faydalı ola bilər. Tənəffüs məşqləri panik ataklarla əlaqəli tənəffüs tezliyinin balanssızlığı kimi simptomları azaltmaqda təsirli ola biləcək üsullar arasındadır.

Panik atak zamanı baş verən hiperventilyasiya (səthi və tez-tez nəfəs alma) bu pozğunluqla əlaqəli qorxu və narahatlıq hisslərini pisləşdirir. Hücum zamanı dərin tənəffüs üsullarının tətbiqi hücum zamanı meydana gələn simptomların idarə edilməsində təsirli ola bilər.

Ən sadə dərin tənəffüs hərəkəti ağızdan nəfəs alma ilə həyata keçirilə bilər və bu texnikada insan 4 saniyə dərindən nəfəs alır, 1 saniyə nəfəsini tutur və 4 saniyə ərzində nəfəs alır və eyni dövrü təkrarlayır.

Dərin nəfəs məşqləri ilə yanaşı, insanların onlarda meydana gələn panik atak əlamətlərindən xəbərdar olması da vacibdir. Bu vəziyyətdən xəbərdar olmaq, hücumun müvəqqəti olduğunu və qısa müddətdə normal rifah halına qayıtmağa biləcəyini bilməyin yolunu açır. Şüur sayəsində insan özünü rahatlaşdıra biləcək digər texnikaları daha asan yerinə yetirə bilər.

*Ardı Səh. 12*

# Panik atak nədir?

Əvvəli Səh. 11

Ətraf mühitin müxtəlif faktorlarından qorunmaq üçün hücumun gəldiyini hiss edən insanın gözlərini yumması bu stimulların qarşısını almaqda və tənəffüs məşqlərinə diqqət yetirməkdə faydalı ola bilər.

Dərin nəfəs məşqlərində olduğu kimi, müxtəlif əzələ rahatlatma üsulları hücum zamanı bədənin reaksiyalarını nəzarət altında saxlamağa kömək edə bilər. Bu texnika barmaq əzələləri kimi kiçik əzələ qruplarından başlayaraq bütün əzələləri tədricən rahatlaşdıraraq həyata keçirilə bilər. Bu üsulların tətbiqi təcrübəsi effektin daha yüksək olmasını təmin edə bilər.

Panik atak müalicəsi çərçivəsində qiymətləndirilən başqa bir müalicə növü hipnozdur. Bəzi insanların hipnoz zamanı edilən təkliflərlə qorxularından qurtulduğu müşahidə edilmişdir. Panik atak xəstələrinə mütəmadi olaraq idman etmələri də tövsiyə olunur. Məşq zamanı beyindəki kimyəvi maddələr arasında tarazlıq qorunur və endorfinlərin miqdarı artır. Gəzinti və üzgüçülük kimi yüngül məşqlərlə ifraz olunan endorfinlər insanın əhval-ruhiyyəsinə müsbət təsir göstərə bilər. Unudulmamalıdır ki, panik atakların müalicəsində psixoterapiya son dərəcə əhəmiyyətli yer tutur.

### Panik ataklar insanın həyatında hansı dəyişikliklərə səbəb olur?

Müalicə olunmayan panik ataklar müxtəlif aspektlərdə həyatın rahatlığını ciddi şəkildə poza bilər. Bunlar - maşın sürmək qorxusu, evdən çıxmaq qorxusu, tez-tez tibbi yardım axtarmaq istəyi, sosial vəziyyətlərdən qaçınmaq, işdə və məktəbdə problemlər, depressiya, narahatlıq və digər psixiatrik problemlər, intihar və intihar düşüncələri, alkoqol və maddə istifadəsinə meyl, maliyyə problemləri.

Bəzi insanlarda çaxnaşma pozğunluğu zamanla agorafobiya olaraq ifadə edilən izdihamlı açıq yerlər qorxusu ilə müşayiət oluna bilər. Bunun səbəbi, insanın hücum zamanı bu mühitlərdən uzaqlaşa bilməyəcəyini hiss etməsidir.

SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloqların bu barədə fikirlərini öyrənib.

Psixoloq Mahuxanım Teymurova: "Panik pozğunluğu, daimi olaraq ani panik və ya qorxu nöbətləri keçirdiyimiz bir anksiyetə (narahatlıq, sıxıntı) pozğunluğudur. Panik atak həqiqi bir təhlükə və yaxud görünürdə bəlirgin bir səbəb olmamasına rəğmən şiddətli fiziki bəlirtilərlə özünü göstərən qorxu nöbətidir. Bu zaman şəxs öləcəyini və ya dəli olacağını düşünür. Hər kəs həyatında bir və yaxud 2 dəfə panik atak keçirə bilər. Lakin əgər şəxsin panik atakları daima, teztez təkrarlanırsa onda bu panik pozğunluğudur.

Panik atak, panik pozğunluğu, fobiyalar, OKB, travma sonrası stress pozğunluğu və s. təşviş pozuntusuna aiddirlər. Fərqli, müxtəlif fiziki simptomların olduğu 4 və ya daha çox panik atak yaşanması "Panik pozğunluğu" ilə ifadə olunur. Bu simptomlara nəfəs darlığı, ürəyin sürətlə döyünməsi, titrəmə, tərləmə, sinədə ağrı, baş gicəllənməsi və s. misal göstərə bilərik.

### Panik atak simptomları nələrdir?

Panik atak zamanı həm zehinsəl (psixolojik), həm də fiziki simptomlar yaşayırıq. Bu simptomlara :

- Sinədə ağrı
- Udqunmada çətinlik
- Nəfəs almada problem
- Nəfəs darlığı
- Sürətli nəfəs alıb vermək
- Ürək döyüntüsünün artması
- İstilik basması
- Titrəmə, üşümə
- Tərləmə
- Bulantı
- Baş gicəllənmə
- Uyuşma
- Qorxu hissi və s. aiddir.

Çox panik atak 5 ilə 20 dəqiqə arasında davam edir. Lakin bəzilərində bir saata qədər də davam edə bilir.

*Panik atak zamanı öləcəyini, infakt keçirəcəyini, dəli olacağını düşünürlər və bu onları qorxudur.

*Əsasən 25 yaş aralığında olan şəxslərdə bu simptomlar ortaya çıxır. Panik atak qorxuducu olsa da təhlükəli deyillər. Panik atağın səbəbi tam dəqiq bilinmir. Beyində kimyasal dəngəsizlik, genetik səbəblər daxil olmaqla müxtəlif teorilər var. Panik ataklar yatarkən belə ortaya çıxa bilər və bu zaman yuxudan dəhşət, qorxu içində oyana bilərsiniz

### Müalicəsi

Bu psixolojik problemdən əziyyət çəkən şəxslərin psixoloqa müraciət etməsi məsləhətlidir. CBT-dən istifadə edərək şəxsin qorxu yaradan situasiyaya qarşı verdiyi davranışı, düşüncəsini dəyişdirməyə kömək ola bilər.

*Nəfəs alma
*Meditasiya
*Yoqa
*Masaj və s. şəxsin panik atağına səbəb olan narahatçılığın, stressin azaltmağa kömək ola bilər. Bununla yanaşı antidepresyandan istifadə edərək bu simptomları nəzarət altında saxlana bilər".

Psixoloq Vüsalə Əmiraslanova: "Panik atak təşviş pozuntusundan yaranır. Yəni, bir insanda həyacan pozuntusu varsa bu artık avtomatikləşir və panik ataka səbəb olur. Panik atakın yaranma səbəblərinə problemlərdən qorxmaq, maddi sıxıntı, itkilər və yaxud da gərginlik yaşama, uğursuzluq daxildir.

Panik ataka hamımız tutula bilərik. İnsanlar bəzən panik atakdan narahat olurlar. Bu hər kəsdə eyni cür olmur. Bəzi insanlr var ki, bir dəfə panik atak olur müalicə alır və bir daha bu halla qarşılaşmır. Ümumiyyətlə, panikatak nevroz halıdır. Sadəcə həssas insanlarda bu daha çox baş verir. Onlar panik atakı daha ağır keçirdir.

Çalışmaq lazımdır ki, gələcəkdən çox narahat olmayaq. Neqativ fikirləri beynimizdən uzaqlaşdıraq".

***Ayşən Vəli***



## "Qara qutu"nun səs yazıları Azərbaycana təqdim edilib

**Dövlət Sərhəd Xidmətinə məxsus helikopterin Xızı rayonu ərazisində qəzaya uğraması nəticəsində 14 nəfərin həlak olduğu, 2 nəfərin isə yaralandığı qəzanın səbəblərinin müəyyənləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb edən, tədqiqat üçün tam yararlı vəziyyətdə olan uçuş parametrlərinin avtomatik qeydiyyat sistemi, yəni "qara qutu"nun hadisə yerinə baxış zamanı müvafiq texniki və prosessual normalara uyğun olaraq götürülməsi tərəfimizdən həyata keçirilib.**

"İki sahil" xəbər verir ki, bunu Baş prokurorun birinci müavini, III dərəcəli dövlət ədliyyə müşaviri Elçin Məmmədov bu gün "Noyabrın 30-da hərbi helikopterin təlim uçuşları zamanı qəzaya uğraması faktı ilə bağlı istintaq olunan cinayət işi üzrə əldə olunmuş ilkin nəticələrə dair" keçirilən brifinqdə deyib.

O bildirib ki, Cinayət işinin istintaqı Baş Prokurorluğun İstintaq İdarəsinin rəis müavini Sənan Paşayevin rəhbərliyi ilə Baş Prokurorluq, Hərbi Prokurorluq və DSX-nın peşəkar əməkdaşlarından ibarət istintaq qrupu tərəfindən həyata keçirilir.

"Helikopterin qəzaya uğraması ilə bağlı daxil olan məlumat əsasında peşəkar əməkdaşlar tərəfindən dərhal hadisə yerinə müfəssəl baxışın keçirilməsi təmin olundu. İstintaqın hazırkı mərkələsində cinayət işi üzrə çoxsaylı şahidlərin dindirilməsi təmin olunub, eyni zamanda intensiv istintaq hərəkətləri həyata keçirilib, müxtəlif ekspertizalar təyin olunub və digər tədqiqatlar aparılıb"- deyə birinci müavin bildirib.

Qəza baş verən gün helikopterin uçuşu və təlimlərə cəlb edilməsi ilə əlaqədar istintaq zamanı hər hansı qanun pozuntusu müəyyən edilmədiyini deyən E.Məmmədov bildirib ki, helikopter qüvvədə olan normativ sənədlərə uyğun olaraq əvvəlcədən təsdiq edilmiş plana əsasən uçuş heyətinin tərkibi müəyyənləşdirilməklə təlimlərə cəlb edilib:

"Belə ki, bu prosesdə də hər hansı normativ tələblərin pozulması halı aşkar edilməyib.

Həmçinin, əlavə etmək istərdim ki, "qara qutu" hüquqi yardım haqqında sorğu əsasında Baş Prokurorluğun və Çex Respublikasının Prokurorluğunun əməkdaşlarının iştirakı ilə müvafiq istehsalçı şirkətin mütəxəssisləri tərəfindən açılaraq uçuşa hazırlıq prosesindən qəza baş verən ana qədər olan bütün parametrlər üzrə məlumatlar, o cümlədən idarəetmə ilə əlaqədar qeydə alınmış səs yazıları Azərbaycan tərəfinə təqdim edilib".

## Bir sıra TV və radiolar 98% əhatəliliklə bağlı tələbə cavab vermir

"Mövcud qanunda olan 98% əhatəliliyin bütün televiziya və radio kanalları tərəfindən təmin olunması real deyil". "İki sahil" xəbər verir ki, bunu Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri İsmət Səttarov bildirib.

Qeyd edək ki, hazırda qüvvədə olan "Televiziya və radio yayımı haqqında" qanunda ümumölkə yayımçısı proqramları ölkənin bütün ərazisinə yayımlanan teleradio yayımçısı ("Ölkənin bütün ərazisi" dedikdə, televiziya verilişləri üçün ölkə əhalisinin, radio verilişləri üçün ölkə ərazisinin azı 98 faizi başa düşülməlidir) deməkdir. "Media haqqında" qanun layihəsində isə ümumölkə yayımçısına dair şərtlər dəyişir, həm də ilk dəfə regional yayımçıya dair tələblər müəyyənləşir.



MTRŞ sədri isə deyib ki, həm ərazi, həm də əhali cəhətdən 98% əhatəliliyə nail olunması qeyri-mümkündür: "Elə bölgələr var ki, orada insanlar kompakt yaşayırlar. Məsələn, Bakı şəhəri. Elə yerlər də var ki, oranın çətin relyefi və coğrafiyası səbəbindən əhali çox seyrək yaşayır. Təbii ki, hər bir kənddə bir ötürücü qoymaq mümkün deyildir. Bu səbəbdən yeni layihədə ümumölkə yerüstü yayımçıları üçün əhalinin 70%-nin əhatə olunması tələbi qoyulmuşdur. Yeni tələblər reallığa daha yaxın göstəricidir. Qüvvədə olan qanuna əsasən, qoyulan 98% tələblə bağlı ekspertiza aparılsa, məlum olacaq ki, bir sıra televiziya və xüsusən də radio kanalları bu tələbə cavab verə bilmir. Onda bu televiziya yayımçısının lisenziyasına xitam verilməlidir. Ona görə də biz reallığa uyğun şəkildə 70% və ondan yuxarı tələbini qoymuşuq. Həmçinin də qanun layihəsinə yeni olaraq regional yayımçı üçün tələb qoyulub ki, bu da azı 2 inzibati ərazi vahidinin əhalisinin 70%-i və ondan yuxarısıdır".

ANALİTİK+AKTUAL

**Əgər 2020-ci ilin 10 noyabr üçtərəfli bəyanatda erməni tərəfini öz "oyun qaydalarını" davam etdirərsə, hər cümləyə, vergül və hərflərdə özünə sərf edən nəticələr çıxararsa, bu cür davamiyyət Ermənistan üçün heç də şirin sonluq vəd etmir. Üçtərəfli bəyanatda aşkar faktlara diqqət yetirək: Laçın dəhlizi iki bənddə xatırlanır - üçüncüdə və altıncıda. Azərbaycanın qərb rayonlarının Naxçıvanla əlaqəsini əks etdirən nəqliyyat rabitəsi isə doqquzuncu bənddədir. Bu zaman sual verilə bilər ki, sözügedən bəndlər arasındakı prinsipial fərq nədədir və həmin fərqlər hansı mənaları kəsb edirlər?**

# Laçın və Zəngəzur:

## İrəvan özünü çıxılmaz vəziyyətə doğru necə sürükləyir?

**Yaxud, üçtərəfli bəyanatda "dəhliz" ifadəsinin olub-olmaması Bakının zəfəri ilə başa çatan müharibənin nəticələrini dəyişmir!**

**Laçın yolunun Zəngəzur tranzitindən fərqli olaraq "dəhliz" kimi adlandırılması hər hansı bir üstünlüyü əks etdirmir, eləcə də əks mənada...**

Erməni tərəfi bunu belə aksentləşdirirlər ki, Laçın yolu ilə münasibətdə "dəhliz" termininindən istifadə olunur, lakın Azərbaycanın qərb rayonlarının Naxçıvan Muxtar Respublikasının əlaqə yolları ilə bağlı həmin termindən istifadə olunmayıb - yəni belə bir ifadə doqquzuncu bənddə mövcud deyil.

Növbəti sual: bəs bütün bu kimi iddiaların bir əhəmiyyəti varmı? Əslində, yoxdur. Yəni Laçın yolunun Zəngəzur tranzitindən fərqli olaraq "dəhliz" kimi adlandırılması hər hansı bir üstünlüyü əks etdirmir, eləcə də əks mənada...

Ona görə ki, bu sözün mənasını istənilən şəkildə şərh etmək olar. Heç bir lüğətdə, ensiklopediyada, ya da beynəlxalq konvensiyalarda "dəhliz" sözünün mənasını əks etdirən müəyyənləşdirici, dəqiqləşdirici heç nə yoxdur ki, bu da İrəvana istədiyi kimi hərəkət etməsinə imkanlar yaratsın.

Faktiki olaraq isə İrəvan boş-boşuna vaxt uzadır və bu vaxtuzatma cəhdinin də ona heç bir səmərəsi dəymir və göründüyü kimi dəyə də bilməz - Soçi və Brüssel görüşləri buna sübutdur.

Və beləliklə, "dəhliz" ifadəsi Laçını Azərbaycanın suveren ərazisi hüququndan məhrum etmir, belə ki, bu yol bilavasitə Azərbaycan Respublikasının daxili ərazisi hesab olunur, üstəlik Bakının bu ərazilərdə buraxılış-keçid məntəqələri yerləşdirməsinə birmənalı olaraq hüququ var.




### Laçın yolunda Azərbaycan postlarının qurulması aksiomadır və ya digər beynəlxalq dəhlizlərin istifadə müxanizmləri də bunu sübut edir

Buna misal olaraq "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi" (siyasi-iqtisadi termində TRASEKA) ifadəsində "dəhliz" sözünü göstərə bilərik. Lakin buna baxmayaraq, TRESEKA Qafqaz dövlətlərinin ərazisindən keçməklə Avropa və Asiya arasında rüsumsuz, gömrükdən azad, nəqliyyat əlaqəsini nəzərdə tutmur.

Eyni məna transmilli CPEC ("China-Pakistan Economic Corridor"), BCIM ("The Bangladesh, China, India and Myanmar Economic Corridor"), INSTC ("The International North-South Transport Corridor") və başqa dəhlizlərdə də əks olunmaqdadır. Bütün bunlar - nəqliyyat və iqtisadi dəhlizlərdirlər və onların hər birində pasportyoxlama məntəqləri, gömrük və fitosanitar nəzarət mexanizmləri həyata keçirilir. Bu baxımdan, Laçın dəhlizi adlanan ərazidə də eyni mexanizmlərin reallaşdırılması heç bir qanunazidlik təşkil etmir və bu, beton kimi aksiomadır!

### Azərbaycanın pasport-gömrük və fitosanitar nəzarəti məntəqələrini qurmasına nə mane olur? Əlbəttə ki, heç nə!

Azərbaycanın öz ərazisində buraxılışı məntəqləri, postlar qurmasına da heç bir halda manеə yaradıla bilinməz. Misal üçün, 6-cı bənddə deyilir ki, Laçın dəhlizi 5 kilometr enində olacaq və Dağlıq Qarabağı (artıq bu ifadə yoxdur-R.R.) Ermənistanla əlaqələndirəcək, eləcə də Şuşa şəhərini görməyəcək. Nə olsun? Bəs hanı qadağa? Bu ifadənin bütün mənası ondan ibarətdir ki, ermənilər müəyyən olunmuş çərçivələrdə özlərini təhlükəsiz hiss edəcəklər, lakin onlar 5 km-lik zolaqdan kənara çıxaraq Şuşaya daxil ola bilməzlər. Ancaq bu o demək deyil ki, Azərbaycan hökuməti öz suverenliyindən imtina edərək bu zolqdan da imtina edir, yaxud orada öz sərhədini, buraxılış məntəqəsini qura bilməz və s. Üçtərəfli bəyanatın məzmununda belə bir söz, ümumiyyətlə, yoxdur!

Həmçinin bildirilir ki, dəhliz Rusiya Federasiyası sülhməramlılarının nəzarətində qalır. Qalır, lap yaxşı! Lakin belə olan halda Azərbaycanın pasport-gömrük və fitosanitar nəzarəti məntəqələrini qurmasına nə mane olur? Əlbəttə ki, heç nə! Çünki sülhməramlıların rolu birmənalı olaraq hərbi məqsədlidir və onların əsas işləri yüklərin, eləcə də insanların fiziki təhlükəsizliklərini qorumaqdan ibarətdir.

Gömrük birbaşa maliyyə, pasport nəzarəti hüquqi, fitosanitar nəzarəti isə səhiyyə məsələləridir və burada fiziki təhlükəsizliyə səbəb ola biləcək heç nə yoxdur. Sadəcə, Azərbaycanın müvafiq məntəqələrinin hər birindən keç və daha sonra Rusiya sülhməramlılarının müdafiəsi altında qal və burada çətin heç nə yoxdur!

### Bakı Laçın yolu üzərindəki Zabuxda ardınca isə hazır olduqdan sonra sözügedən alternativ yolun girişində öz sərhəd-keçid məntəqəsini qura bilər

Üçtərəfli bəyanatda daha sonra bildirilir ki, üç il ərzində Dağlıq Qarabağı Ermənistanla birləşdirən Laçın dəhlizi ilə hərəkət üçün yeni marşrut planı müəyyən ediləcək. Azərbaycan hər iki istiqamətdə Laçın dəhlizi vasitəsi ilə hərəkət edən vətəndaşlara, nəqliyyat vasitələrinə və yüklərə təhlükəsizlik zəmanəti verir. Bir daha sual: hansı sərhəddə Azərbaycan postlarının qurulmasına qadağa qoyan bənd, yaxud ifadə? Göründüyü kimi, yoxdur!

Göründüyü kimi, beynəlxalq hüquqda dəhlizlərdə pasport-buraxılış və fitosanitar nəzarətinə qadağa qoyacaq hər hansı bir qanun, ya da tələb mövcud deyil. O cümlədən, beynəlxalq münasibətlərdə "dəhliz" termininin dəqiqliyini müəyyən edilməsi ilə bağlı ifadə də yoxdur ki, bunu hazırda Ermənstan nümayiş etdirir. Üstəlik, üçtərəfli bəyanatda Azərbaycanın suveren hüquqlarından imtina etməsi ilə bağlı adicə bir eyham da mövcud deyil və əlbəttə ki, ola da bilməzdi!

Məhz bütün bunlardan dəqiq məntiqli və gərək olduğu zaman qətiyyətli nəticələr hasil edən Bakı tam mənada ilk olaraq Laçın yolu üzərindəki Zabuxda ardınca isə hazır olduqdan sonra sözügedən alternativ yolun girişində öz sərhəd-keçid məntəqəsini qura bilər.

**Azərbaycan Laçın yolunda buraxılış-keçid məntəqəsi qurması ilə üzərinə götürdüyü öhdəlikləri pozmur, Ermənistan isə Zəngəzur yolunda postlar qurarsa, üzərinə götürdüyü öhdəlikləri pozmuş olur**

Lakin ən maraqlısı budur ki, 9-cu bənddə söhbət Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikasını əlaqələndirəcək nəqliyyat rabitəsindən gedir və orada Laçından fərqli olaraq dəhliz ifadəsi, eləcə də "maneəsiz hərəkət" sözü mövcud deyil. Bircə bu söz maneə vasitələri olan şlaqbaumları, postları, məcburi dayanacaqları istisna edir. "Dəhliz" sözü də yoxdur ki, hər hansı üstünlüyü, ya da məhdusiyyətləri əks etdirsin. Ancaq bütün bunların yerinə "maneəsiz" ifadəsi mövcuddur ki, ermənilərin tələb etdikləri postların yerləşdirilməsinə birmənalı olaraq maneə yaradır - yəni Azərbaycan tərəfi Zəngəzur dəhlizindən, yaxud nəqliyyat kommunikasiyalarından maneəsiz (!) keçmək hüququndadır!

Beləliklə, nəticə belədir: Azərbaycan Laçın yolunda buraxılış-keçid məntəqəsi qurması ilə üzərinə götürdüyü öhdəlikləri pozmur, Ermənistan isə Zəngəzur yolunda postlar qurarsa, üzərinə götürdüyü öhdəlikləri pozmuş olur. Və əgər İrəvan yenidən öz yararsız düşüncələrinin üzərində qalmaqda davam edəcəksə, əlbəttə ki, yalnız özünü daha çıxılmaz vəziyyətə doğru sürükləmiş olacaq.

*Rövşən RƏSULOV*

# Əli Kərimli yeni təxribatlarla gündəmə gəlmək istəyir

Bugünkü reallıqlara əsaslanaraq demək olar ki, müxalifətin qara günə qalması, cəmiyyət tərəfindən qəbul edilməməsi Əli Kərimli, Cəmil Həsənli və digərlərinin səhv, yanlış siyasət aparmaları ilə bağlıdır. Xüsusilə də, 44 günlük Vətən müharibəsində sözügedən zümrənin qismən də olsa, abır-həya edək, açıq şəkildə erməni qardaşlarına dəstək nümayiş etdirməsələr də, siyasi partiyaların, QHT-lərin, KİV təmsilçilərinin erməni terroru, erməni vəhşilikləri barədə beynəlxalq təşkilatlara, ayrı-ayrı ölkələrin parlamentlərinə ünvanlanan birgə müraciətlərə qoşulmadılar. Bu da onların milli maraqlara olan qərəzli mövqelərinin dəyişmədiyini göstərir. Sadəcə, xalqın qəzəb və nifrətindən qorxaraq ənənəvi düşmənçilik siyasətlərini ortaya qoymadılar. Ancaq erməni vəhşiləri üzərində parlaq qələbədən sonra AXCP, Müsavat, "Milli Şura" yetkililəri öz tarixi meydan düşüncə və fəaliyyətlərini dilə gəlirməyə başladılar. Və yenə də, Ə.Kərimli ABŞ-da tokşou nümayiş etdirən S.Osmanqızı ilə ağızağıza verərək Azərbaycan dövləti haqqında erməni maraqlarına xidmət edən açıqlamalar yaydılar. C.Həsənli gah İngiltərədə, gah da Vaşinqtonda olarkən müxtəlif xarici radiostansiyalara dövlətimizlə bağlı şər və böhtanlarını dilə gətirdi. "Milli Şura" deyilən qondarma qurumun üzvü Tofiq Yaqublu icazəsiz aksiya keçirməklə öz haqqında "qəhraman" obrazı formalaşdırmağa cəhd etdi. Təbii ki, bütün bunlar ayının min oyununun, bir armudun üstündə olduğu kimi, dağıdıcı müxalif funksionerlərinin də hay-küyləri və müxtəlif siyasi şouları xarici işbaz siyasi dairələrin diqqətini özlərinə cəlb etmək və onlardan maliyyə yardımları qopartmaqdır.

### Dağıdıcı fəaliyyət yolu seçən partiyalar növbəti dəfə parçalanacaq

Hazırkı məqamda əminliklə demək olar ki, müxalifət son dərəcə siyasi oyunlar oynamalarına baxmayaraq nə cəmiyyətdən cüzi də olsa özlərinə dəstək, nə də xarici ağalarından arzu etdikləri maliyyə qazancını əldə edə bilmirlər. Əksinə, bu gün müxalif düşərgə ən acınacaqlı günlərini yaşamaqdadır. Növbəti parçalanmalar, qopmalar da qaçılmazdır. Bununla belə, müxalifətdə belə parçalanmaların baş verməsinin hazırkı şəraitdə qarşısını almaq da mümkün deyil. Çünki uzun illərdən bəri yığılıb qalmış intriqalar, dedi-qodular birgə addımlamağa, konkret məqsədlər uğrunda mübarizə aparmağa imkan vermir. Bu baxımdan demək olar ki, yaxın günlərdə AXCP, Müsavat və "Milli Şura" kimi dağıdıcı fəaliyyət yolu seçən qurumlar növbəti dəfə parçalanacaq və ya hansısa partiyaya birləşəcəklər. Hər kəsi təəccübləndirən məqam ondan ibarətdir ki, cəmiyyətdə müxalifətə bəslənən dərin nifrətə baxmayaraq, liderciklər öz amplualarından əl çəkmirlər. Yenə də sərsəm, anormal fikirlərini yaymaqda davam edirlər. Hər dəfə də, müxalif ünsürlərin yaydıqları şər və böhtan xarakterli məlumatlara dərhal xaricdəki qüvvələr reaksiya verir və hay-küylü bəyanatlar, hesabatlar yayırlar. Buna misal kimi, "Freedum Hous", "Soros" və bu kimi digər qərəzli məkrli təşkilatları göstərmək olar. Bu üzdəniraq təşkilatlar məqsədli şəkildə konkret dövləti hədəfə alır, ənənəvi qərəzli tezislərdən istifadə etməklə, filan ölkədə insan hüquqları sahəsində və demokratik proseslərdə problemlərin olduğunu iddia edirlər. Bu istiqamətdə hesabatlar yayır, hay-küy qaldırırlar.

### Müxalifətin fəaliyyəti kənar qüvvələrin sifarişləri əsasında qurulub

Bu, təkzibedilməz fakdır ki, Corc Sorosun təsisçisi və rəhbəri olduğu "Soros" fondunun fəaliyyəti maliyyə imkanları hesabına bəzi zəif ölkələrə qarşıdurmalar, iğtişaşlar ixrac etməkdir. Azərbaycan cəmiyyəti bu təşkilatın erməni lobbisinin əlində Azərbaycana qarşı bir istifadə olunan alət olduğunu da çox yaxşı bilir. Ona görə də, Azərbaycanın ictimai rəyində bu təşkilatın yaydığı hesabatları ciddi sənəd kimi qəbul etmirlər.



AXCP, Müsavat, "Milli Şura" rəhbərliyi bunun fərqində deyillər. Ə.Kərimli və C.Həsənli kimi ünsürlər birbaşa xarici maraqlı dairələrin Azərbaycandakı əlaltıları rolunda çıxış edirlər. Hətta bəzən bunu dolayısı ilə də göstərirlər. Məqsəddə sözügedən təşkilatlar onlara maliyyə yardımları ayırır. Məhz pul xətrinə dövrədə olmaqla Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı mübariz metodu seçirlər. Göstərişə əsasən, onlar gah mitinqlər, küçə yürüşləri keçirir, gah da hədələyici bəyanatlarla çıxışlar edirlər. Baxmayaraq ki, bu ünsürlərin təşkil etdikləri aksiyalara belə gələn olmur. Ancaq "Milli Şura", AXCP liderləri mitinq xəstəliyindən əl çəkmir və demək olaraq ki, hər həftə sonu aksiya keçirmək arzusunda olduqlarını bəyan edirlər. Söz yox ki, mitinqlər zamanı qarşıdurma yaranarsa, dil pəhləvanları hər kəsdən öndə qaçmağa üstünlük verəcəklər. Bunu misal olaraq 2003-cü il 15-16 oktyabr iğtişaşlarına cəhd zamanı İsa Qəmbərin, 2005-ci il Qələbə meydanında polislə qarşıdurma zamanı Əli Kərimlini gözləmədən aradan çıxmalarını göstərmək olar. 1990-cı il 20 Yanvar faciəsi zamanı da insanları meydanlara səsləyən İ.Qəmbər, Ə.Kərimli, A.Hacılı sövet qoşunlarının şəhərə soxulduqlarını görüncə dabanlarına tüpürüb, qaçmağa üstünlük verdilər. Bu baxımdan da, onların heç biri cüzi belə zərər görmədilər. Halbuki, insanları qırğına məhz onlar vermişdilər. Sonradan bəlli oldu ki, 20 yanvar gecəsi İ.Qəmbər Yusif Səmədoğlunun evində istirahət edirmiş.

Ə.Kərimli isə doğulduğu Saatlı rayonu Azadkənd kəndində gizlənirmiş. Bu tendensiyanı iyrənc şəkildə bu gün də davam etdirirlər. Artıq sübut olunub ki, Sorosun ayırdığı pullar hesabına doymuş məhlula çevrilən AXCP və Müsavat rəhbərliyi müəyyən sayda gənci "siyasi mühacir" adı altında xarici ölkələrə göndərib. Sonradan xaricə üz tutan gənclər səhvlərini başa düşüb, onları gedər-gəlməzə yola salan müxalifət liderlərini ifşa ediblər. Məlum olub ki, Ə.Kərimli 2500-3000 manat pul almaqla, onlara partiya vəsiqəsi verərək, həmin şəxsin guya mitinqlərdə polislər tərəfindən təzyiqlərə məruz qaldığını qeyd ediblər. Bu ifşaedici faktlardan sonra da sözügedən partiya sədrlərinin öz bəd əməllərini davam etdirmələri o fikri yaradır ki, bu adamlar əxlaqdan və mənəviyyatdan, həqiqətən də, uzaqdırlar. Məhz bu amil onları məhvə sürükləyir. Daha doğrusu görünən odur ki, AXCP və "Milli Şura" parçalanma prosesini başa vurub, tarixin zibilliyi mərhələsinə adlamaqdadır. Yəqin ki, yaxın günlərdə bu iki qurumun buraxılması və ya hansısa quruma birləşməsi barədə mətbuatda məlumatlara rast gələcəyik. Bu yerdə, yaxşı deyiblər, "sirkə nə qədər tünd olsa, qabını çatladar". AXCP kimi partiyalar və onların funksionerləri də öz ultimativ mesajlarının, hədələyici bəyanatlarının qurbanı olmaqdadırlar.

**İ.ƏLİYEV**







FAKT + TƏHLİL

# Amerikalı xristian alim erməni yalanlarını ifşa edən kitab nəşr edib

Kitabın üz qabığındakı qeyd diqqət çəkir: "Bu kitabı Amerikanın hər xrtistianının və vergi ödəyicisinin oxuması vacibdir!"

ABŞ-da "Ermənistan: "xristian" terror dövlətinin sirləri" kitabı nəşr olunub. Kitabın müəllifi, amerikalı xrsitian-alim SamueL Viims ABŞ-problemlərini ermənilərlə əlaqələndirib. Nəyə görə müsəlman dünyası Amerikanı sevmir? Müsəlmanlarla Birləşmiş Ştatlar arasındakı antaqonizmin təməlində nə dayanır? Bu kimi suallara cavab axtarkən, Arkanzas ştatından olan hüquqşünas, keçmiş hakim və imanlı xrsitian Samuel Viims bir sıra maraqlı məqamları aşkarlayıb, analitik fikirlərini önə sürüb. Onun fikrincə, balaca ölkə olan Ermənistan bütün dünyaya səpələnmiş ermənilərdən istifadə edərək uzun illər boyu xristian dünyasını islama və müsəlmanlara qarşı qaldırmaq üçün bütün gücünü səfərbər edib. Belə ki, London, Paris, Roma, Moskva, İstambul və Vaşinqton kimi şəhərlərin arxivlərində araşdırmalar apararaq çoxsaylı nəticələrə gələn Samuel Viims eyni zamanda adıçəkilən Texasın St. John Press nəşriyyatında çıxan kitabında sensasiyalı fikirlərini də dərc edib.

**Bu balaca banda bizim qanunverici orqanlarımızı Türkiyəni sözdə 1915-ci il soyqırımına görə ittiham edən mənasız qətnamələrin çıxarılmalarına məcbur edir...**

400 səhifəyə yaxın sənədlərə və tarixi şahidliklərə əsaslanan faktlar da məhz bu kitabda yer alıb. Müəllif xüsusilə qeyd edir: "Həqiqətən də faciəvidir ki, bu gün Birləşmiş Ştatlarda erməni mənşəli amerikalılardan ibarət kiçik qrup fəaliyyət göstərir və onlar Türkiyəyə qarşı nifrət kampaniyasını aparırlar - bir ölkəyə qarşı ki, həmin ölkə bizim çoxdankı və etibarlı müttəfiqimizdir. Bu balaca banda bizim qanunverici orqanlarımızı Türkiyəni sözdə 1915-ci il soyqırımına görə ittiham edən mənasız qətnamələrin çıxarılmalarına məcbur edir... Mənim tərəfimdən faktlar aşkarlanıb və həmin faktlar sübut edir ki, erməni mənşəli amerikalılar özləri tərəfindən qətliamlar və soyqırımlarla bağlı yalançı tarixlər uydururlar ki, həm türklərdən, həm də amerikalı xristianlardan bunun müqabilində iri məbləğlərdə pul vəsaitləri əldə etsinlər və özlərinin 150 yaşlı "qədim" vətənlərini mükafatlandırsınlar. Mən amerikalı həmvətənlərimə müraciət edirəm ki, bu suala cavab versinlər: siz kimə inanırsınız - ermənilərin sağ-salamat şəkildə Osmanlı imperiyasını tərk etdiklərinə şahid olan amerikalı şahidlərə, yoxsa birağızdan 1,5 milyon soydaşlarının Osmanlı hökuməti tərəfindən qətlə yetirilməsini deyən ermənilərə? Bu kitab tarixi şahidliklərə, o cümlədən erməni mənbələrindən götürülənlərə əsaslanır. Amerikalı xrsitianlar özləri nəticə hasil etməlidirlər: kim həqiqəti deyir və kim yalan əfsanələri düzüb-qoşmaqla onları şəxsi eqositlik maraqlarına görə yayır".

### "Hitlerin cinahında vuruşanlar bugünkü Ermənistanda necə qəbul edilirlər"

Samuel Viimsin kitabından hazırkı dövrə qədər ABŞ-da olduğu kimi, Rusiyada da çoxları üçün naməlum olan çox şey haqqında öyrənmək olar. Misal üçün: "ermənilər həqiqi olaraq necə xrsitianlardırlar", "ermənilərin Türkiyəyə qarşı iddialarında əsassızlıqlar və yalanlar", "terrorçuluq siyasətini həyata keçirmək üçün öz kilsələrindən necə istifadə edirlər", "ermənilər Qarabağdakı müsəlman əhaliyə qarşı soyqırımı siyasəti keçiriblər", "Hitlerin cinahında vuruşanlar bugünkü Ermənistanda necə qəbul edilirlər", "erməni dövlətçiliyinin total korrupsiyalaşması", eləcə də "ABŞ-ın erməni lobbisi Vaşinqtonla Bakı arasındakı dostluq münasibətlərini pozmaq üçün hansı cəhdləri həyata keçirməyə çalışırlar" və "pulla işləyən erməni agentləri Birləşmiş Ştatlarda necə ictimai fikir formalaşdırırlar".

Və kitabın üz qabığındakı qeyd diqqət çəkir: "Bu kitabı Amerikanın hər xrtistianının və vergi ödəyicisinin oxuması vacibdir!"

**Rövşən RƏSULOV**

# "Delimitasiya və demarkasiya məsələləri istiqamətində real addımlar atılır"



"Brüssel danışıqları bir daha göstərdi ki, dünya birliyi Cənubi Qafqazı əməkdaşlıq bölgəsinə çevirməkdə israrlıdır. Bu, Ermənistanda "revanş xəyalları" quran qüvvələrin Rusiyadan sonra Avropaya bəslədikləri ümidlərin puç olması demək idi". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, ikitərəfli və üçtərəfli formatda görüşlər keçirən liderlər Rusiyanın vasitəçiliyi ilə əldə olunmuş razılaşmalara sadiqliklərini bir daha bəyan etdilər: "Eyni zamanda, Brüsseldə Naxçıvanla Azərbaycanın əsas hissəsini bağlayacaq dəmir yolu xəttinin inşasını sürətləndirmək barədə qərar qəbul olundu. Digər tərəfdən, son günlər delimitasiya və demarkasiya məsələləri üzrə komissiyanın yaradılması istiqamətində real addımlar atılmağa başladı. Bir mühüm dəyişiklik də Türkiyə-Ermənistan arasında ikitərəfli danışıqları aparmaq üçün xüsusi nümayəndələrin təyin olunması və onların fəaliyyətə başlaması oldu".

Abutalıb Səmədov onu da bildirdi ki, bütün bu müsbət dəyişikliklər sərhəddə və Qarabağda baş verən təxribatlara son qoyacaqmı? Şübhəsiz ki, yox. Sabitliyin, əməkdaşlıq mühitinin yaranmasını istəməyən qüvvələr Ermənistanda kifayət qədərdir və onlar təxribatlar törətməyə çalışacaqlar: "Digər tərəfdən, N.Paşinyan ordu üzərində tam nəzarəti hələ də təmin edə bilməyib və bunun nəticəsində sərhəddə müəyyən insidentlərin olması istisna edilmir. Ara-sıra yenə də belə təxribat cəhdləri olacaq. Ancaq bir şeyi dəqiq söyləmək olar ki, bu təxribatların sayı kəskin şəkildə azalacaq, razılaşmaların icrası məqsədilə fəaliyyət güclənəcək".

**Gülyana**

# Rus politoloq:
# "Brüssel sammiti Azərbaycanın qeyd-şərtsiz diplomatik qələbəsidir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**İqor Korotçenko: "Rusiya İrəvana təzyiq etməlidir ki, Azərbaycanın Avropa İqtisadi İttifaqına daxil olması prosesinə mane olmasın"**



Rusiyalı politoloq, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko Ermənistan-Azərbaycan nizamlanması üzrə Brüssel sammitinin yekunları haqda "Moskva-Baku" platformasına geniş müsahibə verib. Müsahibəni kiçik ixtisarla oxucularımıza təqdim edirik.

***- Brüsseldə Əliyevlə Paşinyan arasında danışıqları necə qiymətləndirirsiniz? Avropa Şurasının (Aİ) rəhbəri Şarl Mişelin yekun bəyanatı Rusiyanın vasitəçiliyi ilə əvvəllər əldə edilmiş bütün razılaşmaların Aİ tərəfindən sadə bir şəkildə yenidən təsdiqlənməsi kimi görünmürmü?***

- Azərbaycan və Ermənistan arasında müharibədən sonrakı vəziyyətin nizamlanması ilə bağlı problemlərin müzakirəsinin Brüsselə verilməsi ideyasının özü tamamilə Nikol Paşinyanın və Aİ-nin təşəbbüsüdür. Daha dəqiq desək, prezident Makronla baş nazir Paşinyan arasında şəxsi münasibətlər, eləcə də Parisin erməni mövqeyinə açıq lobbiçilik fəaliyyəti bu cür danışıqların baş tutmasında oynayıb. Sammitin səmərəliliyi nöqteyi-nəzərindən aydındır ki, bütün razılaşmalar hələ Brüssel görüşündən əvvəl üçtərəfli qaydada imzalanmış 3 bəyanatda nəzərdə tutulub.

Brüssel formatının məqsədi Aİnin Ermənistan-Azərbaycan nizamlanmasında moderator olmaq cəhdlərini, habelə Paşinyanın Rusiya və Azərbaycana qarşı Avropa-Amerika kartı oynamaq istəyini reallaşdırmaq idi. Amma bunu bacarmadılar. Brüsseldə Azərbaycan prezidenti ilə görüşdə Ermənistanın baş naziri Rusiya və Azərbaycan liderləri ilə imzaladığı üçtərəfli bəyanatın həyata keçirilməsinə görə məsuliyyət daşıdığını və nəqliyyat dəhlizinin açılmasına hazır olduğunu bir daha təsdiqləməyə məcbur oldu. Düzdür, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında olan Zəngəzur nəqliyyat dəhlizinin statusunu necə şərh etmək problemi var idi. Paşinyan deyib ki, orada Ermənistan gömrüyü, erməni sərhədçiləri olmalıdır, prezident İlham Əliyev isə qeyd edib ki, bu halda Azərbaycan strukturları da müvafiq olaraq Laçın dəhlizində yerləşəcək. Tamamilə ədalətli mövqedir. Beynəlxalq diplomatiyada qarşılıqlılıq prinsipi mövcuddur ki, onun əsasında beynəlxalq siyasət və diplomatiya sahəsində hüquq və münasibətlər normaları fəaliyyət göstərir.

İstənilən halda biz Paşinyanın Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı İrəvanın rəsmən üzərinə götürdüyü öhdəlikləri konkret şəkildə yerinə yetirməsini gözləyirik. Və xüsusən də bu, sərhədlərin delimitasiyası və demarkasiyası məsələsidir. Burada, əminəm ki, avropalı vasitəçilər tamamilə lazımsızdır, çünki onlar məsələnin həllinə ancaq xaos və çaşqınlıq gətirə bilərlər. Bu, sırf Azərbaycan-Ermənistan münasibətlərindən gedir, Putin Soçidə buna diqqət çəkərək, lazım gələrsə, Rusiyanın konsaltinq yardımı və dəstək göstərəcəyini deyib. Amma bütövlükdə məsələ ikitərəfli formatda həll olunmalıdır. Burada isə Fransanın bu işdə arxasında dayandığı Aİ-nin müdaxiləsi



sırf erməni maraqlarının lobbiçiliyini nəzərdə tutur. Ona görə də burada Aİ tamamilə lazımsızdır.

Brüsseldə keçirilən sammit Azərbaycanın qeyd-şərtsiz diplomatik qələbəsinə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev bir daha öz mövqeyini kifayət qədər aydın, dəmir məntiqli, hüquqi cəhətdən qüsursuz formalaşdırır. Əliyev bir daha bəyan edib ki, o, Ermənistanla sülh, sülh müqaviləsinin imzalanması, iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması və nəqliyyat kommunikasiyalarının açılması və mehriban qonşuluq yaradılması əsasında regionun normal inkişafını istəyir. Hesab edirəm ki, digər mühüm element 1-ci Qarabağ müharibəsi zamanı itkin düşmüş azərbaycanlıların taleyinə aydınlıq gətirmək kimi humanitar aspektin araşdırılması zərurətini müəyyən etmək idi. Bu çox vacib məqamdır, çünki məlum olur ki, həmin dövrdə azərbaycanlılara qarşı məhkəməsiz qətllər həyata keçirilirdi. Erməni hərbi birləşmələri sadəcə olaraq mülki azərbaycanlı əhalini məhv edib, Azərbaycan əsgərlərini əsir götürüblər. Və burada, bu faciənin bütün aspektlərinə aydınlıq gətirmək üçün ATƏT-in Minsk Qrupunun, Aİ-nin, hüquq müdafiəçilərinin mövqeyini gözləyirik. Ermənistan öz günahını etiraf etməli, rəsmi ifadələr gətirməli, hərbi cinayətkarları cəzalandırmalı, bütün materialların məxfiliyini götürməlidir.

***- Əgər Aİ rəhbərinin bəyanatı, sadəcə olaraq, Rusiyayönlü razılaşmaların yenidən təsdiqinə çevrilibsə, o zaman bunları necə qarşılamaq lazımdır? Rusiya əsas vasitəçi olaraq qalacaqmı?***

- Gəlin görək hadisələr bundan sonra necə inkişaf edəcək. Hər halda, Kremlin mövqeyi bəllidir- Rusiyanın Cənubi Qafqazda heç bir vasitəçiyə ehtiyacı yoxdur. Bu, Rusiya Federasiyasının maraq zonasıdır. Rusiya Federasiyası bu regionda sülh və mehriban qonşuluqda maraqlıdır. Avropa İttifaqı isə burada açıq şəkildə lazım deyil.

Biz istənilən danışıqlar formatını alqışlayırıq. Amma biz başa düşürük ki, Makron Zaqafqaziyaya girmək istəyir, Aİ bura daxil olmaq istəyir. Bunların hamısı nə Rusiyanın, nə də Azərbaycanın dostu deyil. Ona görə də onların regionda olması məsələsi nə Moskvaya, nə də Bakıya lazım deyil. Əgər hansısa konstruktiv məqamlar gətirsələr- məsələn, Paşinyana təziq etsələr ki, daha balanslı mövqe tutsun, bu yaxşı sayılardı. Amma bu baş verməyəcək. Ermənistanın baş nazirinə otura biləcəyi başqa bir kürsü kimi Aİ lazımdır.

Ermənistan-Azərbaycan nizamlanmasında xüsusilə Aİ və Fransa obyektiv mövqe tuta bilərdi. Amma biz görürük ki, Fransa necə tamamilə ermənipərəst mövqe tutur. Makron və Paşinyan görüşəndə sözün əsl mənasında diş ətindən öpürlər. Makron dedi ki, biz erməni xalqını heç vaxt tərk etməyəcəyik. Və sonra özünü toplayıb azərbaycanca da yazmağa başladı. Amma hamı hər şeyi başa düşür. Azərbaycan dilində yazmaq çox gecdir... Ona görə də Avropa İttifaqından, Fransadan obyektivlik gözləməyə ehtiyac yoxdur.

***- Putin bir tərəfdən Azərbaycan, Ermənistan liderlərinin və Ai rəhbərinin Brüsseldə görüşünü alqışladı. Digər tərəfdən, görüşdən sonra Moskva əvvəlki bütün razılaşmaların yerinə yetirilməsinin vacibliyini qeyd edir...***

- Moskva bəyan etdi ki, istənilən danışıqlar platformasına və konstruktiv razılaşmaların əldə olunmasına şaddır. Bildirilib ki, Moskva Azərbaycanla Ermənistan arasında münasibətlərin tənzimlənməsində monopoliya iddiasında deyil. Eyni zamanda, aydındır ki, Rusiya öz siyasəti çərçivəsində bu istiqamətdə gedən prosesləri izləyir. Və tərəflər hansısa məqamda razılaşsalar- yaxşıdır.

Sual yaranır- Paşinyan il ərzində əldə olunan razılaşmalara sadiq qalacaqmı? Əgər qalacaqsa- yaxşı, amma bu olmasa- o zaman vəziyyətin inkişafı üçün müxtəlif variantlar ola bilər. Rusiya Cənubi Qafqazda sülhün və sabitliyin olmasında maraqlıdır. Onun üçün Ermənistanın Azərbaycan və Türkiyə ilə mehriban qonşuluq münasibətləri qurması vacibdir. Putinin siyasəti ona əsaslanır ki, Cənubi Qafqaz regionunda qarşılıqlı əməkdaşlıq və iqtisadi inteqrasiya sonrakı qarşıdurma risklərini azaldır və regionu sabitləşdirir. Cənubi Qafqazda stabilləşmə və təbii ki, burada hərbi qarşıdurmanın olmaması Rusiya üçün son dərəcə vacibdir.

***- Yeri gəlmişkən, Əliyev Brüsseldə yenə bəyan etdi ki, Qarabağın statusu məsələsi müzakirə olunmur...***

- Hansı statusdan danışmaq olar? İlham Əliyev əsas mövqeyini bir daha təsdiqlədi- Azərbaycan ərazisi bölünməz və toxunulmazdır. Brüsseldə Qarabağın statusu ilə bağlı məsələ qaldırmağa cəhdlər olsa belə, Əliyev onları yatırtdı. Mənə elə gəlir ki, hətta Paşinyan özü də Əliyevlə görüşəndə çox gözəl anlayır ki, onun yeri ön planda olmaqdan çox uzaqdır... Azərbaycan Prezidenti bu gün beynəlxalq miqyaslı şəxsiyyətdir. Prezident, ərazi bütövlüyünü bərpa etmiş qalib ölkənin ali baş komandanı, Qoşulmama Hərəkatının sədri kimi onun imkanları bu gün Ermənistanın baş nazirinin imkanları ilə müqayisə olunmazdır.

Ona görə də status ola bilməz. 44 günlük müharibənin nəticələri Ermənistanın bütün iddialarını tamamilə puç etdi. Hamısını. Bu, məğlub olmuş kapitulyatordur. Ermənistanda təcavüzün çəngəlləri kəsilib, bu, yalnız siyasi neqativlik yarada bilər. Amma hərbi baxımdan bu gün Azərbaycan ərazilərini ələ keçirməyə qadir deyil. Qatar həmişəlik getdi. Ermənistanın ya dünyanın siyasi xəritəsindən silinib yoxluğa qovuşmaq, ya da beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində inkişaf etmək perspektivləri var. Ermənistanın beynəlxalq səviyyədə tanınmış sərhədləri var, ona görə də onların delimitasiyasını, demarkasiyasını həyata keçirmək və ölkənin gələcək inkişafı lazımdır. Ermənistanın belə haqqını heç kim əlindən almır.

"Böyük Ermənistan" mifini unutsunlar. Belə bir şey olmayacaq, ona görə də, bu gün müəyyən erməni revanşistlərinin istəkləri heç nəyi müəyyən etmir. Ermənistan elə bir hərbi-siyasi ayılma məntəqəsinə düşüb ki, oradan aydın başla çıxmaq lazımdır. Çünki ikinci dəfə belə bir ayılma stansiyasına girməsi çox acınacaqlı nəticələrə səbəb ola bilər. Azərbaycana qarşı istənilən yeni təcavüzə sarsıdıcı cavab veriləcək. Ermənistanın sakitləşməsi, inkişafı, mövcud reallıqları qəbul etməsi və öz xalqının rifahı üçün çalışması kritik dərəcədə məcburidir.

İlham Əliyev Brüsseldə Moskvanın vasitəçiliyi ilə əldə olunan bütün razılaşmaları müdafiə etdi. Hamı çox yaxşı bilir ki, Putinlə Əliyev arasında necə müsbət münasibət var. Onların arasında sədd çəkmək cəhdi faydasızdır. Əliyev regionda sülhün və sabitliyin olmasında maraqlı olan siyasətçidir. Ermənistan normal ölkəyə çevrilməlidir, çünki o, hələ də yaşamalı olacağın qonşudur. "Şərq Tərəfdaşlığı" sammitində Əliyev Brüsseldə Ermənistan tərəfdən hər hansı təxribat xarakterli bəyanat eşitmədiyini bildirib. Və bu fikri dilə gətirmək- təbii ki, həm də Ermənistanın sülh prosesinə şüurlu diplomatik stimullaşdırılmasıdır. Və bu baxımdan Ermənistanın həqiqətən də konstruktiv vektor götürməsini istərdim.

***- Son günlər Azərbaycanın Avrasiya İqtisadi İttifaqında status alması məsələsi aktuallaşıb. Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayev belə bir ehtimalı açıqlayıb, Rusiya baş nazirinin müavini Overçuk bu gün Bakıda Azərbaycanın status alması üçün yeni imkanlar barədə məlumat verib. Yəni, Bakının belə bir statusa malik olması ehtimalı varmı, bu haqda müzakirələr gedirmi?***

- Erməni elitasının bəzilərindən Paşinyana bu prosesi əngəlləmək üçün çağırışlarını görürük. Rusiya birmənalı olaraq Azərbaycanın istənilən statusa malik istənilən iqtisadi inteqrasiya birliyinə qoşulmasında maraqlıdır. Ona görə də Rusiya diplomatiyası və siyasəti İrəvana təzyiq etməlidir ki, Ermənistan bu proseslərə mane olmasın, çünki Ermənistan tərəfindən Azərbaycanın AİI-yə daxil olmasının qarşısını almaq cəhdi Rusiyaya qarşı kobud hiylə olacaq və biz bunu nəticəsiz buraxmamalıyıq. Düşünürəm ki, Rusiya diplomatiyası burada qabaqlayıcı şəkildə işləyəcək ki, İrəvan Qazaxıstanın təklifini dəstəkləsin.

Rusiya ilə Azərbaycan arasında daimi təmaslar davam etdirilir, indi biz strateji tərəfdaşlıq sahələri üzrə bir sıra irimiqyaslı sənədlərin qəbulu ərəfəsindəyik. Hazırda iş gedir və ümid edirik ki, bu, bir sıra mühüm sazişlərin qəbulu ilə yekunlaşacaq.

**Tərcümə - Elçin Bayramlı**

SON SƏHİFƏ

# SƏS

21 dekabr
2021-ci il

## «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN



## "Arsenal"dan 7000-ci qol!

Futbol üzrə İngiltərə Premyer Liqasının 18-ci turunda "Lids"lə keçirilən oyun (4:1) "Arsenal" üçün əlamətdar olub. "topçular" bu turda darmadağınla yanaşı, eyniz amanda yenir ekord da müəyyənləşdiriblər. Belə ki, London klubu İngiltərə çempionatları tarixində 7000-ci qolunu vurub. Yubiley qoluna matçın 16-cı dəqiqsində Qabriel Martinneli imza atıb.

"Arsenal" İngiltərə futbol tarixində 7000 qola çatan üçüncü klub olub. Bu göstəricidə London təmsilçisini yalnız iki komanda üstələyir. Bunlar "Liverpul" (7069) və "Everton" (7139) komandalarıdır.

## Bu gün Azərbaycana qış fəsli daxil olur



Bu il ölkəmizə qış fəsli dekabrın 21-i saat 19:59-da Azərbaycana qədəm qoyacaq. SİA xəbər verir ki, bu barədə Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından məlumat verilib. Bildirilib ki, bu zaman Yerin fırlanma oxu Günəş istiqaməti ilə ən böyük bucaq əmələ gətirir və ya Günəş üfüqdən minimum hündürlükdə (26?.2) olur. Həmin gün ən qısa gündüz və ən uzun gecə müşahidə olunur. Gündüzün uzunluğu 9 saat 17 dəqiqə 22 saniyə, gecənin uzunluğu isə 14 saat 42 dəqiqə 38 saniyə olacaq.

## "Mercedes" işıq dirəyinə çırpıldı, sürücü öldü

**Lənkəranda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. SİA xəbər verir ki, "112" qaynar telefon xəttinə Lənkəran şəhəri, Kərgəlan kəndində "Mercedes" markalı minik avtomobilinin yol kənarındakı işıq dirəyinə çırpılması barədə məlumat daxil olub. Hadisə yerinə cəlb olunan FHN-nin Cənub Regional Mərkəzinin xilasetmə qüvvələri sıxılı vəziyyətdə qalan sürücü 2000-ci il təvəllüdlü Rzayev Qadir Qəhrəman oğlunun meyitini deformasiyaya uğrayan nəqliyyat vasitəsindən çıxararaq aidiyyəti üzrə təhvil veriblər.**



## Ürək xəstəliyi riskini azaltmağın 5 YOLU




Ürək-damar xəstəliklərinin inkişaf riskini azaltmaq üçün nə etmək lazımdır?. Böyük Britaniyadan olan terapevt Rihanna MakKlimont bununla bağlı bir neçə məsləhətini paylaşıb. Orqanizmdə iki növ xolesterol var: "yaxşı" və "pis". Sonuncu qan damarlarının divarlarına yapışır və qan tədarükünü pozan lövhələr əmələ gətirir. Belə problemlərin qarşısını almaq üçün aşağıdakı 5 məsləhətə əməl etmək tövsiyə olunur:

- o doymuş yağ istehlakını azaltmaq,
- o daha çox lifli qidaları (tərəvəzlər, göyərti) yeyin,
- o siqaret çəkməyi tərgidin,
- o emal məhsullarından istifadədən çəkinin,
- o daha tez-tez idmanla məşğul olun.

Mütəxəssisin fikrincə, tərkibində doymuş yağ olan qidalardan uzaq durmaq ürək xəstəliyi riskini 17 faiz, doymamış yağlara (məsələn, günəbaxan və zeytun) keçmək və istehlak edilən yağın ümumi miqdarını azaltmaqla onu 30 faizə qədər azalda bilərsiniz.

Mütəxəssis həmçinin qeyd edib ki, meyvə və kənd təsərrüfatı məhsullarındakı gün ərzində həll olunan sellülozun 3 qramı ürək xəstəliklərinin profilaktikasına kömək edəcək. Siqaret tərgitmək, emal edilmiş qidalardan imtina etmək və idman etmək də ürək xəstəliyi riskini azaltmaq üçün çox vacib amillərdir./lent.az

## Başsağlığı

Hüseyn Hacıqulu oğlu Həsənov Oruc, Şamil, Qadir, Elmira, Sara, Suqura, Şəfiqə, və Səmaye xanıma əzizləri

**SURA XANIM İBRAHİM QIZININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**